

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Günün mübarək, Kəlbəcər!




4

№ 217 (7142)

SƏS

26 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Tarixə düşəcək möhtəşəm tədbir-COP29




2

*Prezident İlham Əliyev: "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!"*

# Dünya tarixinə yazılan DİPLOMATİK QƏLƏBƏ




5

## Dəyəri bilinməyən sərvət: zeytun



6

## 75 yaşlı Sumqayıt şəhəri




10

## Plastik və polietilen terroru: Özümüzü və təbiəti zəhərlənməkdən necə qoruya bilərik?



15

## "Sökүntü Bakının daha pis vəziyyətdə olan məhəllələrində başlanılacaq"



16

## Messi yeni biznesə başlayır -10 minlik velosiped satışı..



16

# Tarixə düşəcək möhtəşəm tədbir-COP29






## *Prezident İlham Əliyev: "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!"*





***Regionda ilk dəfə keçirilən COP29-a Azərbaycan uğurla ev sahibliyi etdi və tarixinə daha bir hadisənin salnaməsi yazıldı. COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı 198 ölkənin yekdil dəstəyi Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi ilə nəticələndi. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavab oldu. Beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan COP29-un təşkili baxımından üzərinə düşən vəzifəni layiqincə yerməк məqsədi ilə tədbirlər həyata keçirdi və nəticə hər kəsi heyrətləndirdi.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəsi ilə paylaşım edib. Paylaşımda qeyd olunduğu kimi, "Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək".

Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərin önündə olmasına sadiqliyini nümayiş etdirən strateji addımdır. COP29-a hazırlıqla bağlı isə Prezidentin müvafiq sərəncamı ilə Təşkilat Komitəsi yaradıldı, əlaqədar qurumlar səfərbər edildi. Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi təkcə beynəlxalq ictimaiyyətin ölkəmizə etimadının göstəricisi deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli işlərin aparılması üçün əlverişli fürsət və böyük məsuliyyət idi. COP29-a hazırlıq sürətlə aparıldı. Ölkəmizdə hazırlıqla bağlı həyata keçirilən tədbirlər sırasında müxtəlif təşkilatlar tərəfindən təşkil olunan təlimlər də xüsusi rol oynamışdı.



### "COP29-UN ÇOX YAXŞI TƏŞKİL OLUNMASI İLƏ BAĞLI BÜTÜN QONAQLARDAN YÜKSƏK QİYMƏT ALMAQDAN QÜRUR DUYURUQ"

COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisi idi. Azərbaycan artıq beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətli idi ki, bu, Azərbaycanın lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilmişdi. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbərdir. Bildirək ki. SOP28 ötən il Dubayda keçirildi, bu il isə dünyanın gözü COP29-a ev sahibliyi edən Bakıda oldu. Bütün dünya ölkələrinin dövlət rəhbərləri bir araya gəlib iqlim dəyişikliyi ilə bağlı məhz Bakıda həll yolları axtarıldı. "Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq. Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu".

**Ardı Səh. 3**

# Tarixə düşəcək möhtəşəm tədbir-COP29

Əvvəli-Səh-2

### “AZƏRBAYCAN BİTƏRƏF VASİTƏÇİ KİMİ ÇIXIŞ EDƏRƏK DANIŞIQLARIN QƏRƏZSİZ APARILMASI ÜÇÜN BÜTÜN İMKANLARI YARATDI”

Azərbaycan Respublikasında 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı.. Sərəncam iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədi daşıyır. Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri ”Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. ”Yaşıl dünya naminə həmrəylik” şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı”, - deyə Prezident bildirib: ”Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik”.




### ”AZƏRBAYCAN İNKİŞAF ETMİŞ VƏ İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏR ARASINDA KÖRPÜLƏRİN QURULMASI ÜÇÜN SƏYLƏRİNİ ƏSİRGƏMƏDİ”

Bildiyimiz kimi, COP29 çərçivəsində iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətlərini dəstəkləmək məqsədilə ”Kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair Bakı Bəyannaməsi” qəbul olunub. Əlbəttə ki, bu Bəyannamənin qəbul edilməsi COP29-a Azərbaycan Sədrliyinin növbəti uğurudur. Azərbaycanın iqlim dəyişmələrinin mənfi təsirinə məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətləri ilə əməkdaşlığı genişlənib. Prezident İlham Əliyevin COP29 çərçivəsində noyabrın 13-də keçirilən İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxışı zamanı bildirib ki, Azərbaycan kiçik ada dövlətlərinə sarsılmaz dəstəyini göstərir: ”Biz məhz fəlakətdən əziyyət çəkən bir sıra ölkələrə, qasırğalardan, zəlzələlərdən və daşqınlardan əziyyət çəkən ölkələrə yardım göstərmişik”.




Paylaşımda Azərbaycan Prezidenti bildirib ki, Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu: ”Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək”.

### KİÇİK ADA DÖVLƏTLƏRİNƏ DƏSTƏK

Qeyd edək ki, Azərbaycan ərzaq təhlükəsizliyi, mədəni irsin qorunmasında yardım məqsədi ilə humanist addımlar atmışdır. Hətta kiçik ada ölkələri Azərbaycanın təqaüd proqramlarından yararlanıb. ”Mən inkişaf etmiş ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə kiçik ada ölkələrinə yardım etmələri üçün müraciət edirəm”, - deyə dövlətimizin başçısı çıxışında bildirib. Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi zamanı da 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada ölkəsinə yardım göstərib. Azərbaycan Prezidenti həmin ölkələrin üzləşdiyi problemlərin aradan qaldırılması Azərbaycanın COP29-da göstərdiyi səylərin mərkəzindədir”. Qlobal səhiyyə böhranı dövründə belə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib. Bu, həm də Azərbaycanın keçdiyi inkişaf yolunun, əldə etdiyi iqtisadi nailiyyətlərin göstəricisidir. Vaxtı ilə maliyyə yardımı alan Azərbaycan artıq fəal donor ölkəyə çevrilib. Ölkəmiz kiçik ada dövlətlərinə birmənalı dəstəyini ardıcıl olaraq nümayiş etdirir. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitindəki çıxışı zamanı Azərbaycan Prezidenti bir daha təsdiqlədi ki, COP29-un sədri kimi Azərbaycan onları dəstəkləyəcəkdir.

### ”MƏN BAKI NAİLİYYƏTİNİ ÇOXTƏRƏFLİLİYİN TƏNTƏNƏSİ KİMİ QİYMƏTLƏNDİRİRƏM”

Azərbaycan təkcə neft-qaz ölkəsi kimi deyil, bu sahədə də özünü göstərəcəkdir. Azərbaycanın gündəliyi yaşıl enerji ilə bağlıdır. Azərbaycan yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Rəsmi mənbələrin məlumatına istinadən, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir və yaşıl enerjiyə keçidə yönəlmiş innovativ yanaşmaların tətbiqi üzrə regionda liderdir, iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizəyə ciddi töhfə verir.

Məlumdur ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir. Azərbaycanda yaşıl və bərpaolunan enerjiyə keçid istiqamətində böyük işlərin görülüb. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını ”Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək ”Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur.

Beləliklə, Azərbaycan daha bir beynəlxalq tədbirə uğurla ev sahibliyi etdi. ”Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün Tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm”, - deyə Prezident bildirib.

*Zümrüd BAYRAMOVA*




# Günün mübarək, Kəlbəcər!

***"Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 25 noyabr Kəlbəcər şəhəri günüdür. Günün mübarək, Kəlbəcər!***

27 il əsarətdə qalan bu qədim yurd yerimizin üç il əvvəl işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, əsilzadəliyi, insanpərvərliyi ilə qalacaqdır. Kəlbəcərin işğaldan azad olunması ilə xalqımız iki böyük qürurlu səhifə açdı müasir tariximizdə: Kəlbəcər 27 illik işğaldan azad olundu. Azərbaycan xalqı bu yurdu 27 il əsarətdə saxlayan, sərvətlərini talayan, tarixi binaları, məktəb, xəstəxana və digər sosial obyektləri, evləri uçurub-dağıdan düşmənə bu torpaqdan çıxması üçün 10 gün daha vaxt verdi. Tək bu fakt 44 günlük Vətən müharibəsində Azərbaycan haqqında bəzi xoşagəlməz fikirlər yürüdən dövlətlərə çox dəyərli cavabdır. Üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkəmizin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. O mərhələ ki bu addımla Azərbaycan xalqının kimliyini bir daha dünyaya bəyan etdi.

### Blitzkriq əməliyyatı ilə işğal olunan Kəlbəcər

Blitzkriq alman sözüdür. Blitz (ildırım), krieg (müharibə) sözlərinin birləşməsindən yaranıb. Mənası sürətli qələbə qazanmaq üçün gərgin hərbi kampaniya, "şimşək müharibəsi"dir. Bu kampaniya XX əsrin əvvəllərində alman feldmarşalı Alfred fon Şliffen tərəfindən yaradılıb. Blitzkriq zirehli tanklar və hava dəstəyi də daxil olmaqla, hərəkətli, manevr gücləri istifadə edərək düşmənə sürətli, fokuslanmış bir zərbə vurmaq üçün hazırlanmış hücum müharibəsi metodunu təsvir etmək üçün istifadə olunan bir termindir. Belə bir hücum ideal olaraq əsgər və topçu itkisini məhdudlaşdıraraq sürətli bir qələbəyə səbəb olur. I Dünya müharibəsində almanlar blitzkriqi Polşa, Norveç, Belçika, Hollandiya, Fransaya, II Dünya müharibəsində isə Rusiyaya tətbiq etmiş və uğurlu nəticələr qazanmışlar.

Maraqlıdır, bunu ermənilər Kəlbəcərə necə tətbiq etmişdilər? Sovetlər Birliyinin 15 müttəfiqindən biri Azərbaycan idisə, digəri də Ermənistan idi. Nəzərə alsaq ki, Azərbaycan Ermənistandan bütün dövrlərdə zəngin bir ölkə olub, 70 il sonra 1990-cı illərdə Azərbaycan iqtisadi cəhətdən o vəziyyətdə idisə, gör indi Ermənistan hansı vəziyyətdə imiş. Yox, unutduğum fərqli bir məsələ var: erməni yaltaqlığı, riyakarlığı. Həmin dövrdə Sovetlər Birliyi özünü yenidən dirçəltmək üçün ermənilərdən hərtərəfli istifadə edirdi. Elə blitzkriq əməliyyatı da ermənilərə havadarlıqlarının növbəti məsləhəti idi. Faktlar da bunu təsdiq edir: Rusiya mənbələrinə görə, Ermənistanda yerləşdirilən 128-ci alayın (7-ci Rusiya Ordusu) dağ qoşunları Kəlbəcəri blitzkriq əməliyyatı ilə ələ keçirdi. İlk ağır müqavimətdən sonra Azərbaycan qoşunları tezliklə dağıldı və rayon mərkəzi 1993-cü il aprelin 3-də işğal olundu.

Hadisələrə bu günün prizmasından yanaşdıqda ermənilərin Kəlbəcərdəki alman blitzkriq əməliyyatı ilə bağlı belə bir qənaətə gəlirəm ki, onlara bu əməliyyat yəqin ulu babaları Qaregin Ter-Artyunyanın (Nijde) uzun illər alman faşistlərinə köpək kimi xidmətindən ərməğandır. Maraqlıdır, Sovetlər Birliyinin tör-töküntüsü onları almanlara satan Nijdenin tör-töküntüsünə niyə bu dəstəyi verirdi? Məqsəd hər zamankı kimi aydındır... 30 il əvvəlin fonunda o da aydın göründü ki, Azərbaycan 30 ilə yaxın bir dövrdən sonra düşmənə blitzkriq əməliyyatından da güclü həmlələr etdi.

### Kəlbəcərin sahibi gələcəkdi...

1993-cü ildə Kəlbəcər işğal olundu. 70 il əsarətdə yaşayan, sərvətləri mənimsənilən, əlləri bomboş olan bir xalqın əlindən alındı böyükmiqyaslı torpaqları, eləcə də Kəlbəcəri. Bu xalqın igid övladları çıxdı düşmənin qarşısına. Çünki tarixən Azərbaycan oğulları canından keçib, lakin düşmən qarşısından qaçmayıb. Son nəfəsinədək torpaq uğrunda vuruşub. Lakin əliboş, silahsız nə etmək olardı? Blitzkriq əməliyyatının qarşısında ov tüfəngi nə iş görə bilərdi? Heç nə. Ona görə də nəticə belə oldu: Kəlbəcərin 58 mindən artıq əhalisi minillərboyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salındı, 321 nəfər əsir düşdü və ya girov götürüldü, 511 nəfər vəhşicəsinə qətlə yetirildi. 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min qaramal, 500 min baş qoyun-quzu, 100-lə maşın, texnika və sair talan edildi, rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşındı.

Kəlbəcər bu taleyi yaşadı, bəli. Lakin bu o demək deyildi ki, Azərbaycanın bu qədim torpaqları əbədiyyən erməni tapdağı altında qalacaqdı. Bu o demək deyildi ki, evindən-eşiyindən didərgin salınan minlərlə insanın bu taleyi ilə barışılacaqdı. Milyardlarla manatlıq sərvətin dağıdılmasına göz yumulacaqdı.

Gələcəkdi zamanın da sahibi, torpaqların da. Və gəldi də. 30 ildə bu ölkənin sərvətlərinin əsas hissəsi ordu quruculuğuna ayrıldı, 30 il əvvəlki uğursuzluğu uğurla əvəz etmək üçün. Torpaqları yağıdan azad etmək üçün. İnsanların üzərindən qaçqın, köçkün, yurdsuz adını götürmək üçün. Onları yurdlarına geri qaytarmaq, torpaqların ətrini yenidən qoxulatmaq üçün. Ölkəmizin Prezidenti, Ali Baş Komandanımız, hər bir azərbaycanlının qürur yeri cənab İlham Əliyevin həm hərbi, həm də siyasi bacarığı ilə tariximizə 44 səhifə əlavə olundu. Bu 44 səhifəyə 200-300 minilliyə bərabər tarix yazıldı. 10 noyabr Bəyanatı ilə Qarabağ probleminə son qoyuldu.

### Azərbaycanın gözmuncuğu, Qobustanın əkizi Kəlbəcər

Nəinki Azərbaycanın, bütün Qafqazın gözmuncuğu, Qobustanın əkizidir, Kəlbəcər. Ərazisinə və əhalisinin sayına görə Şərqi Zəngəzurun ən böyük rayonu olan bu yurd yeri təbii sərvətləri, gözəllikləri, dağlıq, qeyri-adi əraziləri, çayları, düzləri ilə bir füsunkarlıq abidəsidir, canlı təbiət muzeyidir. 30 min ildən çox tarixi olan yaşayış məskənləri, məscidləri, VI-VII əsrlərə aid Xudavəng məbəd kompleksi, XIII əsrə məxsus Arzu xatın məbədi, silsilə alban məbədləri, Hacı Əsəd, Hacı Əhməd, Ağ körpüləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri Kəlbəcərin qədimliyinin təsdiqidir. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Kəlbəcərdə "Türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir.

Kəlbəcərin səthi dağlıqdır, o, Murovdağ, Şahdağ və digər yüksəklikləri sinəsinə bənd edib, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinə qoyun açıbdır bu yurd yeri. Ən böyük çayımız Tərtər və onun iki böyük qolu, Bazarçayın da mənbəyi, Ulu Öndərin rəhbərliyi ilə tikilən Sərsəng Su Anbarı Kəlbəcərin ərazisindədir.

Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr, meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlarda alp və subalp çəmənlikləri geniş yer tutur. Meşələrinin ümumi sahəsi 32774 hektardır. Qaya keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və sair Kəlbəcər faunasının zənginliyidir. Və qızıl yataqları... Söyüdlü – Zod qızıl mədəni tarixə uzun əsrlərdir, məlumdur. Zod qızıl yatağının istismarı eramızın III minilliyinə təsadüf edir. Söyüdlü sahəsində 1970-1980-ci illərdə aparılan geoloji kəşfiyyat işləri vaxtı qədim dağ qazmaları, mağaralar, quyular, qədim süxur çöküntüləri və qədim filiz qırıntılarından ibarət ayrı-ayrı təpəciklər və qızıl istehsal edən alətlər onu sübut edir ki, insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər. Zar kəndi isə tarixdə "Şəhrizər", yəni qızıl şəhəri adı ilə məşhur olub. Kəlbəcər, bütövlükdə, bu təbii sərvətləri, təbiəti, tarixi ilə Azərbaycanın göz muncuğudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var".

### Kəlbəcər bir çox məqamları təsdiqlədi

"Dostu dar gündə tanıyarlar" məsəli dilimizin deyimidir. Lakin düşməni dar ayaqda tanıyarlar deyimini eşitməmişdik. Sual oluna bilər ki, düşmən elə düşməndir də, onun nəyini tanımaq lazımdır ki? Bəli, düşmən düşməndir, lakin hər düşmənin də öz kökünə məxsus xisləti var. Sən demə, belə bir deyim var imiş, lakin biz bunu canlı olaraq görəcəkmişik. Bunu Kəlbəcərin ermənilər tərəfindən boşaldıldığı vaxt gördük. 27 il əvvəl işğal edərək xarabalığa çevirdikləri, bu xarabalıqlar arasında bəzi evlər saxlayıb, kəlbəcərlilərin zəhmətlə, nə kimi arzularla tikdikləri evlərinə sığınan ermənilər rayonu tərk edərkən həmin evləri, meşələri, həyətlərdəki ağacları yandırdıqları zaman gördük o deyimi. Bununla da, öz kimliklərini bir daha sübut etdilər. Sübut etdilər ki, düşmən olmaq bir ayrı məsələdir, xislətsiz, xaraktersiz olmaq bir başqa məsələdir. Göstərdilər, biz də gördük. Bizim xalqın nümayəndələri ermənilərin Gəncəyə atdıqları ballistik raket nəticəsində dağılmış evlərindən çıxarkən Azərbaycan bayrağını sinəsinə sıxıb çıxdıqları halda, ermənilərin nələri sinələrinə sıxıb Kəlbəcəri tərk etdiklərini də gördük. Evləri yandırmaqda məqsədləri nə idi bu bədbəxtlərin, görəsən? Düşünürdülər ki, kəlbəcərlilər qayıdıb onların murdar nəfəsləri çökmüş evlərdə yaşayacaqlar? Əsla.

Əvvəllər bədxah qonşularımız azərbaycanlılara qonaq gələndə onların istifadə etdikləri qab-qacağı atarmışlar. Oturduqları döşəkçənin üzünü çıxarıb yuyub, salavatlayıb, sonra yenidən istifadə edərmişlər. İndi o evlərdəmi yaşayacaqdıq? Ermənilərin murdar nəfəsləri çökmüş divarların arasındamı yaşayacaqdı kəlbəcərlilər?

### Kəlbəcərə həyat qayıdır...

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır".

Elə həmin Baş Planla da Kəlbəcər yenidən qurulur. Kəlbəcərdə avtomobil yolları, yeni kəndlər salınıb. Su Elektrik stansiyaları, yarımstansiyalar qurulub. Hərbi hissə, hospital tikilib. Kəlbəcər şəhərində yaşayış məhəlləsi salınır, məktəb, sosial obyektlər tikilir. İstisuya yeni həyat verilir...

Bəli, biz Kəlbəcərə qayıdırıq. Ata-baba yurdumuza, əzəli torpaqlarımıza qayıdırıq. Bu xalq XXI əsrdə yazdığı qəhrəmanlıq dastanı ilə – "Qarabağ" dastanı ilə o torpaqlara qayıdır. Dövlət-xalq birliyi, lideri ilə, şücaətlə, rəşadətlə, şəhidləri, yaralı qaziləri, 27 illik yurd təşnəli insanları ilə erməni qəsbkarlarından geri aldığı torpaqlara qayıdır. Orada şəhidlərinin qanı axmış torpaqları qoxulamağa, o torpaqlarda azan səsini dinləməyə, öz ata-babasının məzarını ziyarət etməyə, o torpaqlara yeni həyat verməyə qayıdır.

***Mətanət Məmmədova***

# Dünya tarixinə yazılan DİPLOMATİK QƏLƏBƏ

***Ölkəmizi rəqib hesab edənlər, düşmən kimi görənlər, ən azından qələbələrimizlə barışmayanlar, uğurlarımızı həzm edə bilməyənlər, hər məqamda mane olmaq istəyənlər, artıq Azərbaycanın dünya miqyasında, beynəlxalq səviyyədə növbəti diplomatik qələbəsini sadəcə müşahidə etmək məcburiyyətində qaldılar. Beynəlxalq əhəmiyyətli COP29 tədbirinin uğursuz olacağını arzu edənlər və buna çalışanlar, hətta nəyə isə ümid edənlər özləri məyus oldular. Ona görə ki, bu qədər böyük miqyaslı, qlobal əhəmiyyətli tədbirə ev sahibliyi edən Azərbaycan həmin tədbiri uğurla başa vurmaqla, "qara qüvvələrin" arzularını puça çıxardı və bununla da daha bir diplomatik qələbəyə, özü də dünya tarixinə yazılan bir diplomatik qələbəyə imza atmış oldu.***




### Rəsmi Bakı çoxlarını öz yerində oturtdu və əsaslı faktlarla, arqumentlərlə yanlışlıq etdiklərini isbat etməklə çoxlarını susdurdu

Sirr deyil ki, hələ COP29 başlamadan öncə belə Azərbaycanı "sevməyən" qüvvələr ölkəmizə qarşı istənilən istiqamətdə maneçilik törətmək fikrinə düşsələr də nə isə əldə edə, nəyə isə nail ola bilmədilər. Daha doğrusu, Azərbaycan buna da imkan vermədi. Bəli, bir çoxları əvvəlcə tədbirin Azərbaycanda keçirilməsinə, ölkəmizin həmin beynəlxalq tədbirə ev sahibliyi etməsinə mane ola bilmədikləri zaman yamanca "pəjmürdə" oldular və ilk məğlubiyyətləri ilə üz-üzə gəldiklərini özləri hamıdan qabaq anladılar. ABŞ və Avropa İttifaqının, ümumiyyətlə, Qərbin məhz məsuliyyətdən yayınmaq üçün məsələni siyasiləşdirmək, yeni maliyyə hədəfinin müəyyən edilməməsi üçün süni maneələr yaratmaq cəhdlərinin bütün dünya hələ COP29 ərəfəsində belə şahidi oldu. Şahidi oldu ki, bunun ardınca da həmin tədbirlə bağlı tamamilə fərqli təsəvvür yaratmaq niyyətinə düşdülər və beynəlxalq miqyaslı tədbiri, bütövlükdə dünyanın problemlərinin, ələlxüsus da iqlim dəyişikliyi ilə bağlı qlobal məsələlərin müzakirə olunacağı tədbiri gözdən salmaq istədilər. Xüsusən də müzakirələri hədəfdən yayındırmaq niyyəti ilə Bayden Administrasiyası və Aİ rəhbərliyi əlaqəli şəkildə ciddi cəhdlə "çalışdı". Ələlxüsus da yeni prezident seçilmiş Trampa mümkün qədər çox problem "saxlamaq" kimi bir niyyətin məhz Bayden Adminstrasiyana məxsus olduğu bəlli olsa da, sirr deyildi ki, öz məqsədləri naminə ilk növbədə, tədbirin əhəmiyyətini şübhə altına almağa çalışdılar və bu məsələdə də uduzdular, çünki Azərbaycan bu məsələnin aktuallığını nəinki dəfələrlə bəyan etdi, xüsusən də isbat etdi və aydın şəkildə göstərdi. Bir sözlə, rəsmi Bakı çoxlarını öz yerində otuzdurdu və yanlışlıq etdiklərini əsaslı faktlarla, arqumentlərlə isbat edərək, çoxlarını susdurdu.

Xatırlayırıq ki, sözügedən beynəlxalq tədbir başladıqdan sonra da "dinc oturmayan" bəzi qüvvələr ortaya atılmışdılar və onlar da hansısa yolla bir maneçilik törətmək niyyətində idilər. "Gah nala, gah da mıxa vuran" kimlər idi, onu da hamı çox yaxşı bilir. Ölkəmizə qarşı nifrət, qəzəb və qərəzin haradan qaynaqlandığı da sirr deyil. Hər şey hamıya bəllidir və hamı çox yaxşı bilir ki, ermənilərin dəyirmanına su tökmək istəyənlər, daha doğrusu özlərini haylara "yaxşı göstərmək" istəyənlər ancaq öz çıxarları, öz niyyətləri, öz maraqları üçün atılıb-düşməkdə idilər və sadəcə, suyu bulandırmaq üçün bütün vasitələrə əl atmağı belə məqbul hesab edirdilər. Buna görə yalana da əl atırdılar, böhtandan da istifadə edirdilər. Maliyyə hədəfinin müəyyən olunması prosesinin gərgin keçməsinin əsas səbəbkarının məhz Avropa İttifaqı və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen olduğu hər kəsə artıq bəllidir. Bəllidir ki, şəxsən Ursula fon der Lyayen Bayden Administrasiyası ilə razılaşdırılmış şəkildə Avropa İttifaqının iqlim dəyişikliyinə qarşı mübarizə məqsədlərinə mümkün qədər az vəsait ayrılmasının qərarlaşdırıldığını bilirdi və ölkəmizin paytaxtına, Bakıya gəlməmə səbəbi də bu idi. Təbii ki, onun gəlməməsi ilə heç nə dəyişmədi. Yenə də ölkə rəhbərimiz, Azərbaycan Prezidenti cənab İlham Əliyev öz siyasi iradəsi və qətiyyəti ilə bir daha sübut etdi ki, heç kim bizim qərarlarımıza təsir edə, yolumuza çıxa, uğurlarımızın, nailiyyətlərimizin qarşısını kəsə bilməz və Azərbaycanın bu dəfə də Beynəlxalq miqyasda, dünya tarixinə yazılan diplomatik qələbəsinə qarşı da çıxmaq mümkünsüzdür və belə də oldu.

### Azərbaycan əleyhinə çıxış edənlər öz məğlubiyyətlərini də, bunun fonunda ölkəmizin diplomatik qələbəsini də başa düşürlər

BMT-nin İqlim Dəyişikliyi Konfransının Bakıda keçirilən 29-cu sessiyasının iştirakçılarının məhz yoxsul ölkələrə iqlim məsələləri ilə bağlı yardımını artırmaq barədə razılığa gəlmələri özü böyük bir qələbədir. Özü də bu qələbə məhz Azərbaycanın qələbəsidir və dünya darixinə yazılan diplomatik qələbə olaraq qəbul edilməkdədir. Müvafiq məqsədlər üçün hər il ayrılan vəsaitin 300 milyard dollara qədər artırılması barədə qərara gəlinməsi, ən yoxsul ölkələrin hər il müvafiq vəsaitləri almalı olduğu barədə qərar məhz rəsmi Bakının uğuru, qələbəsidir. Sözsüz ki, COP29-da 300 milyard dollar maliyyə ayrılışı qarşıdan gələn dövrdə bu məbləğin daha da artırılması üçün əsaslı zəmin yaradır və məhz elə bu baxımdan da tarixi nailiyyət sayılır. İqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin maliyyələşdirilməsi, həmçinin tez-tez baş verən quraqlıqlar, tufanlar və daşqınlar kimi qlobal istiləşmənin təsirlərinin aradan qaldırılması üçün nəzərdə tutulan vəsaitlər heç də nəzərdən qaçacaq məsələ deyil. Deməli, Azərbaycan əleyhinə çıxış edənlər artıq öz məğlubiyyətlərini də, bunun fonunda ölkəmizin diplomatik qələbəsini də başa düşdülər.

Artıq rəsmi Bakıya qarşı aparılan kompaniyaları, tədbirin keçirilməsi ilə bağlı ölkəmizə mane olmaq cəhdlərini dönə-dönə xatırlamaq kimi bir niyyətimiz yoxdur və bunu isbatlayan məqamların kifayət qədər olduğunu və dəfələrlə isbat edildiyini nəzərə alaraq, Azərbaycana qarşı atılan təxribatçı addımların üzərində dayanmaya da bilərik. Lakin bu məqamda sadəcə olaraq, onlara çatdırmaq istərdik ki, göstərmək istədikləri ilə "oynadıqları rol" arasında bir paradoks qətiyyən diqqətdən yayınası deyil. Bundan başqa, heç olmasa dərk etməli idilər ki, onların Azərbaycan əleyhinə mövqe sərgiləmək üçün fokuslanmaları, bizim əleyhimizə olan əhval-ruhiyyələri bütövlükdə tarixi ədalətə qarşı yönəlik sayılır. Bilməli idilər ki, onlar təkcə Azərbaycana qarşı çıxış etmirlər, ümumilikdə dünyanın problemlərinə, qlobal məsələlərə saygısız, etinasız yanaşmaqla, bütövlüksə dünya ictimaiyyətinə qarşı çıxış etmiş olurlar. Bax elə bunu da rəsmi Bakı sübut etdi və bunu, elə məhz dünya tarixinə yazılan diplomatik qələbə olaraq etiraf etməkdən başqa artıq onların özlərinin belə çarələri də qalmayıb.

### Ölkəmiz müqavimətə, təzyiqlərə növbəti dəfə layiqincə tab gətirdi, dözüm nümayiş etdirdi və bu, rəsmi Bakının diplomatik qələbəsi sayılır

Bəzi qüvvələr Azərbaycana qarşı qərəzli mövqe tutmaqla, əslində, bəşəriyyətin maraqlarına və ehtiyaclarına qarşı olduqlarını ortaya qoydular. Sözdə daim insan hüquqlarının təmin olunmasını müdafiə etdiklərini göstərsələr də, bunu sübut edə bilmədilər. Əksinə, onlara sübut olundu ki, kainatın qorunub saxlanması üçün əhəmiyyətli hesab olunan ideyaların reallaşmasına qarşı çıxırlar və bu ideyaları dəstəkləyən onlar yox, məhz Azərbaycandır. Sübut olundu ki, Qlobal Şimal və Qlobal Cənub arasında qarşılıqlı anlaşmanın təmin edilməsinə nail olmaq üçün onlar minimum da olsa səy göstərmirlər, əksinə, haqlı və ədalətli tələblərə inadla, xüsusən də, qəddarcasına müqavimət göstərirlər. Azərbaycan isə həmin müqavimətə, həmin təzyiqlərə belə növbəti dəfə layiqincə tab gətirdi, sinə gərdi, dözüm nümayiş etdirdi, dövlət başçımız öz siyasi iradəsi və qətiyyəti ilə yenə də öz sözünü dedi və bu özü də rəsmi Bakının diplomatik qələbəsi sayılır.

Almaniyanın xarici işlər naziri Annalena Barbokun, Fransanın ekologiya, enerji və iqlim naziri Aqnes Pannier-Runaherin, tanınmış amerikalı konqresmen Frank Pallonenin simasında bir çox qərəzli siyasətçilərin təxribat xarakterli hərəkətlərinə, manea törətmək cəhdlərinə baxmayaraq COP29 kimi böyük bir tədbir, beynəlxaq tədbir uğurla keçirildi. Heç bir qərəzli mövqe hesaba belə alınmadan tədbir öz axarı ilə getdi. COP29-da Aİ-ni təmsil edən, artıq bir neçə gün Bakıda olan Almaniyanın xarici işlər naziri Annalena Berbokun özünün iqlim məsələləri ilə məşğul olmaq əvəzinə mətbuat konfransı keçirərək, Azərbaycanda insan haqlarından danışması da, Azərbaycan müxalifəti və Qərbin buradakı şəbəkə fəallaları ilə görüşlər keçirməsi də, hətta sonuncu gün COP29-un müzakirələri zamanı yalnız gərginlik yaratmaqla məşğul olması da tədbirin ahəngini belə pozmaqda aciz oldu. Azərbaycan beynəlxalq tədbirə ev sahibliyini layiiqincə etdi. Müvəffəqiyyətlər də göz önündədir. Tədbir haqqında xarici qonaqların təəssürütları da beynəlxalq ictimaiyyətin diqqətindən qətiyyən yayınan deyil. Qəbul olunan qərarlar, dünya miqyaslı qərarların qəbul olunması da öz növbəsində xüsusi rəğbət doğuran məqamlardır və bütün bunlar həmin qərəzli qüvvələrin niyyətlərinin puça çıxması deməkdir. Bu həm də ölkəmizin dünya tarixinə yazılan növbəti diplomatik qələbəsi olaraq qəbul edildiyini göstərir.

### Azərbaycan bu sınaqdan da üzüağ çıxdı və dünya tarixinə yazılan diplomatik qələbəyə imza atdı

Ola bilsin ki, bəziləri üçün yuxarıda adları sadalanan qərəzli siyasətçilərin, qərəzli qüvvələrin mövqeyi elə də fərqli görünməyə bilər. Bəlkə də bəziləri ikili standartları, ədalətsizliyi o qədər də müşahidə etməyiblər. Ən azından Azərbaycan qədər ədalətsizliklə qarşılaşmadıqları fonunda çoxlarının haqsızlığı, ədalətsizliyi bizim qədər görmədikləri də bir reallıqdır. Heç bir ölkə məhz Azərbaycan qədər ədalətsizliklə qarşılaşmayıb və ölkəmiz qədər də ədalətsizliyə qarşı çıxa bilməyib. Azərbaycan az qala əsrin üçdə birinə yaxın müddət ərzində səbr nümayiş etdirərək, işğala son qoyulmasını və buna bütövlükdə dünyanın dəstəyini gözləsə də, erməniərəstlərin tamamilə başqa niyyətdə olduğunu, işğala etinasız yanaşdığını, heç bir addım atmadığını, əksinə, işğalçını dəstəklədiyini gördükdə, ədalətsizliklə mübarizəyə qalxdı və 44 gün ərzində qələbəyə imza atdı. Bu qələbə həm də haqsızlığa qarşı mübarizədə ölkəmizin qələbəsi idi.

Məhz COP29 beynəlxalq miqyaslı tədbirlə əlaqədar olaraq ölkəmizə qarşı çıxanlar əslində, bəşəriyyətə qarşı çıxmış olurlar. Onlar bütün dünyada köməyə, dəstəyə, maddi yardıma ehtiyacı olan insanlara qarşı çıxırlar, təkcə Azərbaycana qarşı yox. Onların mübarizəsi birbaşa insanlığa qarşıdır. Bunun nə demək olduğunu biz çox yaxşı bilirik. Xocalı faciəsi kimi insanlıq dramına, ermənilər tərəfindən törədilmiş saysızhesabsız insan tələfatına, bir milyondan artıq insanın yürd-yuvasından didərgin salınaraq köçkünlük həyatı yaşamasına, Azərbaycan ərazilərinin düz 30 ilə, əsrin üçdə birinə yaxın dövr ərzində işğal altında saxlanılmasına, qanunsuz erməni silahlılarının ölkəmizin ərazisində mövcudluğuna, BMT-nin bunlarla bağlı məlum dörd qətnaməsinə, indi də ermənilərin, bütövlükdə Ermənistanın mina terroruna məhəl qoymayanları çoxdan tanıyırıq. Bilirik ki, onlar yalnız sözdə humanizmdən, insanpərvərlikdən, bəşəriyyəti düşündürən məsələlərdən dəm vururlar. Əslində, görürük ki, bu məqamda da qərəzli yanaşma sərgiləyirlər. Amma onlar da görürlər ki, Azərbaycan məhz humanizm prizmasından yanaşır və bəşəriyyət üçün həlli vacib məsələlərin müzakirəsinə önəm verir. Deməli, Azərbaycan yenə də qələbəyə imza atmış olur. Artıq bu qələbə ölkəmizin növbəti diplomatik qələbəsi olaraq, dünya tarixinə yazılmış olur, çünki bu məsələlər dünyanı düşündürən, dünyanı narahat edən, bəşəriyyət üçün həlli vacib olan məsələlərdir.

***İnam Hacıyev***

# Dəyəri bilinməyən sərvət: zeytun



## Xərçəngdən diabetə, qastritdən göbələyə qədər onlarla xəstəliyin dərmanı zeytun yağının 5 min ildən çox yaşı var

***Azərbaycan iqtisadiyyatının aqrar sektorunda özünəməxsus çəkiyə sahib olan bitkilərdən biri də zeytundur. Zeytun ağaclarının qədimdən bəri ölkəmizdə yetişdirilməsi, meyvəsindən gəlir əldə edilməsi kütləvi olmasa da müəyyən dərəcədə istehsalatda payı olub. Bu unikal ağacın həm meyvəsi, həm də yarpaqları qida və dərman sənayesində xüsusi çəkiyə malikdir. Hər iqlim şəraitinə uyğunlaşan, baxımı üçün çox xərc tələb etməyən bu möcüzəvi bitki Bakının ağciyərləridir desək, yanılmarıq. Ölkəmizdə zeytunçuluğun böyük potensialı olduğu halda bu fürsətdən yetərincə istifadə edilmir.***

20-dən artıq növü olan zeytun, əsasən, Cənubi Avropa, Afrika, Cənubi Asiya və Avstraliyanın mülayim isti və tropik zonalarında yayılıb. Zeytun A, D, E və K vitaminləri baxımından çox zəngindir, onun meyvəsindən alınan yağ bədəndə kalsium itkisinin qarşısını alır, qalın bağırsaq, prostat, mədə və pankreas xərçənginə tutulma riskini azaldır, ürək-damar xəstəliklərindən qoruyur. Zeytun yağından mütəmadi istifadə qaraciyəri sağlam saxlayır, sümükləri gücləndirir, çünki zeytun çox güclü antioksidantdır. Zeytundan əldə edilən yağ qəbizliyi aradan qaldırır, həzmə kömək edir, mədə narahatlıqlarını aradan qaldırır, həmçinin virus, bakteriya və göbələklərə qarşı çox güclü qoruyucudur. Bundan əlavə zeytun və ondan alınan yağ uşaqlarda sağlam diş inkişafına kömək edir, habelə hüceyrələri yeniləyərək yaşlanmağı gecikdirir və dolayısı ilə ömrü uzadır.

Zeytun yağının tərkibində olan "oleacanthol" adlı maddə iltihab əleyhinə müsbət təsir göstərir. Zeytun yağı xolestrolun miqdarını azaldır deyə ürək-qandamar xəstələri üçün yaxşı qida hesab edilir: "Tərkibində E vitamini olduğu üçün antioksidantdır, bu isə xərçənglə mübarizədə effektivdir. Tərkibində həll olunan "saturated" yağları olduğu üçün diabet xəstələrinə xeyirlidir. Bu yaxınlarda Fransa alimləri sübut etdi ki, zeytunla qidalanma beyin insultunu, beyinə qan sızmanı azaldır, təsadüfi deyil ki, gündəlik qida rasionunda zeytun yağı ilə qidalanan insanlarda bu xəstəlik nadir rastlanır. 100 qr zeytun yağının tərkibində 14 mg. E vitamini var. Bu isə gün ərzində bizə lazım olan E vitaminin 93% -i deməkdir".

Dünyada yaşı 2000-dən çox olan xeyli zeytun ağacı var. Bu isə hələ qədimdə zeytun və ondan əldə edilən yağın istifadəsini sübut edir. Zeytunun həm meyvəsi, həm yağı, həm də yarpaqları qədim Misirdə qida və tibbi istiqamətlərdə istifadə edilib. Tarixi qaynaqlarda Kleopatranın öz gözəlliyini zeytun yarpağından hazırlanmış maskalarla qoruması barədə yazılar da var. Araşdırmalar zeytun yağının ehtiva etdiyi E vitamininin insan hüceyrələrinin yenilənməsində böyük rol oynadığını deyir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) isə apardığı bir araşdırmanın nəticələri daha maraqlı faktlar ortaya çıxardı. ÜST-ün araşdırmalarına görə, infarkt və ürək xəstəliklərinə ən az Krit adasında rast gəlinir və burada yaşayan insanlarda infarkt riski minimum səviyyədədir. Çünki Krit adası hələ qədim zamanlardan bəzi zeytun yağının vətəni hesab edilib.

### Xərçəngin qorxduğu qida– zeytun yağı

Tibb elmləri doktoru Şahin Rzayev deyir ki, zeytun yağında xərçəngə qarşı bir çox təsirli maddə var, insan orqanizmi üçün vacib vitaminlərdən olan A, D, E və K vitaminləri hətta zeytun emal edilərək yağa çevriləndə belə öz təsirini olduğu kimi saxlayır: "Dünyada aparılan araşdırmalar zamanı zeytun yağının tərkibində olan bu vitamin və maddələrin xərçəng şişlərinin yaranmasının qarşısını aldığı və hətta radioaktiv şüalardan qoruduğu aşkarlanıb, bunu inkar etmək olmaz.

Zeytundan alınan yağ mədə turşuluğunu azaldaraq qastrit və mədə xorasının təbii yolla müalicəsində əvəzsiz vasitə sayılır. Tərkibindəki vitaminlər uşaqlarda



sümük və diş inkişafında əhəmiyyətli rola malikdir, həmçinin bu vitaminlər kalsium qoruyucusudur. Əvvəllər osteoporozdan, yəni sümük əriməsi xəstəliyindən əziyyət çəkən insanlara zeytun yağından istifadə məsləhət görülürdü, bu yağla bədən əzaları masaj edilirdi".

Həkim qeyd edir ki, zeytun qaraciyərin dostudur. Onun sözlərinə görə, zeytundan alınan yağın həzm pozğunluqları, öd kisəsi xəstəlikləri və öd kisəsi daşının əridilməsində, bağırsaq xərçəngində və sarılıqda faydalı olduğunu sübut edən yüzlərlə elmi məqalə var: "Bizim ölkədə nədənsə zeytun yağına qarşı fərqli fikirlər formalaşıb. İnsanlar hesab edir ki, kərə yağı daha faydalıdır. Bu kökündən səhv fikirdir. Kərə yağının qanda xolestrolu artırdığını, müxtəlif xəstəliklər yaratdığını bir çoxumuz bilirik, üstəlik, daha sərfəli qiymətə yağ əldə etmək üçün istehsalçının ən ağlagəlməz yollara baş vurduğu danılmazdır. Amma təxminən 6-7 kq zeytundan 1 litr yağ əldə edilir, üstəlik meyvələrinin lət hissəsində 70 %-ə qədər, toxumunda isə 25-30 % yağ var, bu isə o deməkdir ki, bu meyvə başdan-ayağa yağdır və onun istehsalında hər hansı bir fırıldağa əl atılmasına ehtiyac belə qalmır".

Müsahibimizin sözlərinə görə, yerli alıcılar yerli istehsala üstünlük verməlidir: "Ona görə ki, zeytunun növü çoxdur və hər coğrafiya üçün spesifik növləri yetişdirilir. Hər coğrafiyanın insanı üçün elə o ərazidə yetişən məhsullar xeyirlidir. Bu gün dünyada zeytunun geni ilə oynayıb daha böyük, daha yaraşıqlı meyvələr əldə edirlər. Amma bizim ölkədə yetişdirilən zeytunlar genetik modifikasiyaya məruz qalmayıb, bunu zeytun ağaclarının məhsullarını görəndə aydın hiss etmək olur, meyvələri normal ölçüdədir, irilixırdalıdır. Ölkəmizdə 6 növdə yerli zeytun yetişdirilir, yerli zeytun ağacları olduqca çox bar verir və ağacların daha məhsuldar olması üçün kimyəvi tətbiqlərə ehtiyac qalmır. Bol məhsul bol yağa təminat verir. Nəticədə, yerli alıcı sərfəli qiymətə xeyirli məhsul əldə edir".



### Zeytunun yağı qədər tumu da faydalıdır

Zeytunun meyvəsi, yağı qədər tumunun da faydası var. Müasir insanlar arasında zeytun tumunun udulması ilə müalicə edilən xəstəliklər barədə məlumatı olan azdır, amma əvvəllər insanlar bəzi xəstəlikləri məhz zeytun tumu udaraq müalicə edirdilər. Keçmiş SSRİ-də başlanan araşdırma 25 ildən sonra Rusiyada yekunlaşanda da bu sübut edildi. 1985-ci ildə başlayan araşdırma çərçivəsində mədə problemi olan yüzlərlə insana mütəmadi olaraq hər gün bir neçə zeytun tumu udması tapşırılmışdı, 2005-ci ildə rus alimlərinin araşdırmanın nəticəsini açıqlamasından sonra məlum oldu ki, mədə xorasından, qastritdən əziyyət çəkən insanlar bu illlər boyunca hər gün bir neçə zeytun tumu udmaqla xəstəliklərini unudublar. Həmçinin babasildən, bağırsaq keçməzliyindən qorunmaq üçün də zeytun tumu əvəzsiz vasitə hesab edilir.

### Zeytun yağı 5 min il xarab olmur

Zeytun yağı əsrlərdir ən yaxşı, ən mükəmməl yağ hesab edilir. Normal qaydalara riayət edilərək hazırlanan zeytun yağı, hətta ərslər boyu xarab olmadan qala bilir. Bunu arxeoloji qazıntılar zamanı 3-5 min il əvvələ aid olan qəbirlərdə tapılan zeytun yağları sübut edib. Zeytun yağı soyuducuda donmalıdır, bu xüsusiyyəti onun təbii olduğunu sübut edir. O ki qaldı istehsal növlərinə, mütəxəssislər məsləhət görür ki, daha çox 2 növ zeytun yağı istifadə edilməlidir. Bunlardan biri süzmə, digəri isə tam təbii olanıdır. Bu iki növün digərlərinə nisbətən daha təbii və zeytunların tərkibinin dəyişmədən yağa çevrildiyi elmə məlumdur.

Zeytunun adı müqəddəs Quranda da çəkilir. Məhəmməd Peyğəmbər də öz hədislərində "zeytun yağı yeyin və onunla yağlanın, zeytun yağı ilə müalicə olunun, çünki o, bərəkəti bol və mübarək bir ağacın meyvəsindən yaradılıb" deyib. Hədisdə zeytun yağını yalnız yemək deyil, həmçinin bədənə xaricdən də tətbiq edilməsinin faydaları barədə məsləhətlər var.

### Böyüyə, kiçiyə, qadına, kişiyə - hər kəsə dərmandır

Zeytun yağı ilə masaj qan axışını nizamlayır, damarların daha yaxşı qan ötürməsinə səbəb olur. Həmçinin, kiçik damarların üzə çıxaraq ayaqlara xoş olmayan görüntü verməsini də zeytun yağı ilə aradan qaldırmaq olur, damarların göründüyü bölgəyə zeytun yağı ilə masaj tətbiq etmək problemi nisbətən aradan qaldırır. Dabanlarında çatlar əmələ gəlmiş insanlar gün ərzində bir dəfə bu yağı dabanlarına tətbiq etsə problem həll olar. Soyuq havalarda əllərə və üzə çəkilən zeytun yağı dərini donmaqdan qoruyur. Saçlardakı boyanı, üzdəki kosmetikanı təmizləmək üçün əvəzsiz vasitə hesab edilən zeytun yağı yaralanmalar zamanı da möcüzəvi sağaltma təsiri göstərir.

Kəsilmiş və ya yara çıxmış dəriyə zeytun yağında isladılmış tənzif qoyanda yaranın sağalma müddətini tezləşdirir. Günəş yanıqları zamanı zeytun yağının tətbiqi minimal ağrı və maksimal sağalma deməkdir. Ağcaqanadlar zeytun yağı ilə yağlanmış dərini dişləmir, dəri gənələri zeytun yağı çəkilmiş dəridə məhv olur. Təraş edilmiş bölgəyə zeytun yağı tətbiq etməklə dərini daha zərif saxlamaq mümkündür.

Qurumuş dodaqlar üçün ən yaxşı məlhəm, quru saçlar üçün ən yaxşı şampun, qırılan dırnaqlar üçün ən yaxşı dərman hesab edilən zeytun yağını duş şampununa əlavə etməklə hər duşdan sonra daha təravətli dəriyə sahib olmaq olar. Doğuşdan sonra dəridə qalan çat izlərini, əmizdirmə zamanı döş gilələrində yaranan yaralarıda bu yağla yox etmək mümkündür. Yeni doğulan körpələrin yanlarında əmələ gəlmiş səpkilərə və başlarında yaranmış qabıqlara tətbiq edildikdə effektiv nəticə əldə etmək olur.

***Lalə Mehralı***

ARAŞDIRMA



# ABŞ-ÇXR: ticarət müharibəsi qaçılmazdır?




*Ekspert: “Hər bir ölkə qazandığı gəlirləri Amerika-Britaniya kapitalının nəzarətində olan transmilli şirkətlərlə bölüşməlidir, Çin isə öz gəlirlərini ancaq öz ehtiyacları üçün istifadə edir”*





ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın gələcək administrasiyasında əsas vəzifələrə Çinə mənfi münasibət göstərən siyasətçilərin təyin edilməsi Pekində narahatlıq doğurur. Bu barədə Financial Times qəzeti yazır.

Nəşrin məlumatına görə, Çin hakimiyyəti ABŞ-la münasibətlərdə sabitliyə nail olmağı planlaşdırır və yeni ticarət müharibəsi istəmir. Bununla bağlı Pekin 2016-2020-ci illərdə ilk prezidentlik dövründə onun administrasiyasının tərkibində olan keçmiş Tramp komandasının nümayəndələri ilə əlaqələri bərpa etmək niyyətindədir.

Bununla belə, qəzetin yazdığı kimi, Tramp artıq Çinə mənfi münasibət bəsləyən siyasətçiləri gələcək administrasiyasında əsas vəzifələrə təyin edib. Xüsusilə, Nümayəndələr Palatasının üzvü Mayk Vals prezidentin milli təhlükəsizlik üzrə köməkçisi olacaq. Dövlət katibi isə Marko Rubiodur. Bundan əlavə, məlumdur ki, Tramp birinci prezidentliyi dövründə Çinlə ticarət müharibəsinin təşəbbüskarlarından biri olmuş Robert Laythazeri də öz administrasiyasına dəvət etmək niyyətindədir.

2025-ci ilin yanvarından sonra Çin və ABŞ arasında yenidən başlayan ticarət müharibəsinin riskləri nələrdir? Bu qaçılmazdır, yoxsa bütün qlobal iqtisadiyyat üçün belə bir mənfi ssenarinin qarşısını almaq olar? Bu dəfə Vaşinqtonun hansısa yolla Pekinlə razılığa gəlmək istəməsi şansı varmı?

Dünya Siyasəti İnstitutunun (Bişkek) direktoru Şeradil Baktıqulov Caliber.Az-a şərhində bildirib ki, Donald Trampın ABŞ prezidenti kimi Çinlə ticarətə məhdudiyyətlər tətbiq etməsi ilə bağlı kifayət qədər geniş yayılmış yanlış fikir var.

“Əslində 2015-ci ildə ABŞ-ın o zamankı demokratlardan olan prezidenti Barak Obama Çinə maliyyə sanksiyaları tətbiq etdi. Donald Tramp hakimiyyətə gəldikdən sonra məhdudiyyətlər siyahısını genişləndirdi. Hazırkı prezident Co Bayden də kənarda qalmadı və bir sıra məhdudiyyətlər tətbiq etdi, bunlardan ən məşhuru Çin elektrik avtomobillərinə tariflərin artırılmasıdır. ÜTT-nin bir sıra məhdudiyyətləri təşkilatın qaydalara uyğun gəlməməsi kimi tanınmasına, digərləri isə açıq şəkildə qərarı gecikdirməsinə baxmayaraq, bu niyə baş verir?

Biz “Bretton Woods” müqavilələrinin mahiyyətini dərk etməliyik. Hər bir ölkə qazandığı kapitalı Amerika-Britaniya kapitalının nəzarətində olan transmilli şirkətlərlə bölüşməlidir. Nə qədər ki, ölkənin gəlirləri onlarla bölünəcək, Səudiyyə Ərəbistanında olduğu kimi hər şey yaxşı olacaq. Səudiyyədə demokratiya, heç bir azadlıq və insan haqları yoxdur, amma ABŞ və digər Qərb ölkələri ona qarşı heç bir sanksiya tətbiq etmir. Əgər hansısa ölkə bu sistemin bir hissəsi olmaqla transmilli şirkətlərin gəlirlərini məhdudlaşdırırsa, o zaman Venesuela və ya İran kimi sanksiyalara məruz qalacaq”, - institutun direktoru izah edir.

Onun sözlərinə görə, Çin yeganə ölkədir ki, bu sistemin bir hissəsi olmayıb və Çin şirkətlərinin qazandığı pulları öz ehtiyacları üçün istifadə edir.

”Bütün dünyada bir ”arzu” var- ”hər çinli bir dollar ödəsə, mən milyarder olacağam.” Buna görə də ABŞ-ın ticarət məhdudiyyətləri Çin kapitalından pay almaq üçün Çinə qarşı oyundur. ABŞ, Aİ və digər ölkələr birtərəfli sanksiyalarını ÜTT-nin ləğv etməməsi üçün siyasiləşdirilmiş şüarlar altında məhdudiyyətlər tətbiq edirlər.

Məsələn, ABŞ, Aİ və digər ölkələr Çindən gətirilən pambığın istifadəsini qadağan edib. Orada pambıq əsasən Sincanda istehsal olunur. Müvafiq olaraq, “qul əməyi”nin işlədilməsi ilə bağlı ifadə təqdim edilir. Lakin onun haqqında məlumat heç vaxt Çində olmamış bir Qərb tədqiqatçısının məqalələrinə əsaslanır. Bu məqalələrdə uyğur qaçqınlarına istinadlar yer alıb. Onlara inanıb inanmamaq şəxsi məsələdir, lakin bu payızda Avstriyada bir tacik “homoseksual” qaçqın statusundan məhrum edilib. Bu vətəndaş qeyri-ənənəvi oriyentasiyasına görə Tacikistan və Rusiyada təqiblərə məruz qaldığını bildirərək bu statusu alıb, lakin arvadı və 3 uşağını Avstriyaya gətirməyə cəhd etdiyi üçün bundan məhrum edilib. Özü üçün daha yaxşı həyat axtarışında olan insan istənilən hekayəni danışa bilər”,- ekspert qeyd edib.

Ekspert sual verir: niyə Çini bu bazardan çıxarmaq lazımdır? “Dünyanın ən böyük beş pambıq istehsalçısı Çin, Hindistan, ABŞ, Braziliya və Pakistandır. Onlar dünya pambığının təxminən 75%-ni istehsal edirlər. Bununla belə, pambıq bazarına Amerika-Britaniya mənşəli transmilli şirkətlər nəzarət edir. Məsələ burasındadır ki, pambıq təkcə geyim istehsalı üçün deyil, həm də barıt (patronlardan tutmuş raket və yaxın mənzilli raketlər üçün), kağız pul çapı üçün xammaldır. Çinin bu bazardan kənarda qalması pambığın qiymətinin artmasına səbəb olacaq. Söhbət onlarla, yüz milyonlarla ABŞ dollarından gedir. Onlardan hansı belə bir “tort payından” imtina etməyə hazırdır? Sual ritorikdir. Lakin bu, Donald Tramp və komandasının Çinlə bağlı gələcək fəaliyyətlərinin əsas motividir - Çin kapitalından pay almaq”, - Baktıqulov yekunlaşdırır.

***Tərcümə - Elçin Bayramlı***



# Aİ-Tramp qarşıdurması

## *Brüssel ABŞ-ın yeni administrasiyası ilə münasibətlərdə çətinliklər gözləyir*



***Donald Trampın qələbəsi Aİ-yə üzv ölkələrin paytaxtlarında siyasi qüvvələrin ziddiyyətli reaksiyasına səbəb oldu və bəzi Avropa liderlərinin üstünlükləri üçün növbəti lakmus testinə çevrildi. Bu ilin iyununda keçirilən Avropa Parlamentinə seçkilərdən sonra mövqelərini bir qədər də gücləndirən sağçı populistlər və avroskeptiklər bu xəbəri həvəslə və ümidlə qəbul edərkən, onların siyasi rəqibləri, əsasən də Amerika Demokratlarını dəstəkləyən mərkəz solçular, liberallar və yaşıllar acı bir xəyal qırıqlığına uğrayıblar.***



Avropalı Trampçılar sübut etməyə çalışırlar ki, ABŞ-ın 47-ci prezidentindən qorxmağa ehtiyac yoxdur, çünki onun ilk prezidentlik müddəti "Avropanı yaxşılığa doğru dəyişib". Onların fikrincə, Trampın idxala tətbiq etdiyi tariflər qıcıqlandırıcı idi, lakin "Amerika iqtisadiyyatını stimullaşdırmaqla Avropa firmalarına Atlantik okeanı boyunca daha çox mal satmağa kömək etdilər". Onun NATO-dan çıxmaq təhdidləri müdafiə xərclərinin çox ehtiyac duyulan artmasına səbəb oldu və bu, sonrakı hadisələrin fonunda faydalı oldu. Onun avropalılara "Rusiyanın enerji resurslarından həddən artıq asılılığı" ilə bağlı xəbərdarlıqları indi hamılıqla qəbul edilir. Maraqlıdır ki, Aİ-də Trampın bəzi radikal əleyhdarları hesab edirlər ki, ABŞ-da millətçi prezidentin seçilməsi müsbət rol oynaya və Avropanın müdafiəsinin inkişafı üçün bir növ şokedici rol oynaya və onun maddi-texniki bazasının qurulmasına təkan verə bilər. .

Bütövlükdə Avropa İttifaqının rəhbərliyinə gəlincə, o, Trampın qələbəsi xəbərini ABŞ-ın yeni administrasiyası ilə münasibətlərdə gözlənilən çətinliklərlə bağlı dərin narahatlıqla qarşılayıb. Brüsseldə heç kimin şübhəsi yoxdur ki, bu çətinliklər qaçılmaz olaraq yaranacaq. Buna baxmayaraq, siyasi etiketə uyğun olaraq, Trampın qızğın tərəfdarı, onu qələbəsi münasibətilə ilk təbrik edən Macarıstanın baş naziri Viktor Orbanın ardınca bütün Avropa liderlərindən ABŞ-ın yeni prezidentinə təbriklər yağmağa başladı. Avropa Komissiyasının sədri Ursula fon der Leyen Trampı seçilməsi münasibətilə təbrik edib və ona gələcək illərdə yaxşı transatlantik münasibətlər arzulayıb. Almaniya, Fransa, İtaliya və digər ölkələrin liderləri ondan nümunə götürüblər. Fransa prezidenti Emmanuel Makron fikir ayrılıqlarına baxmayaraq, "daha çox sülh və rifah üçün" Trampla vicdanla çalışacağına söz verib. İtaliyanın Baş naziri Giorgia Meloni, tez-tez "İtaliya Qardaşları" partiyasını Amerika Respublikaçıları ilə müqayisə edir, Trampa təbrikində "ABŞ və İtaliya arasındakı strateji bağı" vurğulayır, onun rəhbərliyi altında "ortaq dəyərlərə və tarixi dostluğa çevriləcək daha güclü" bağlara sahib olacaqlarından söhbət açıb.

Avropalı müşahidəçilər hesab edirlər ki, Trampın qələbəsi Aİ-yə arzuolunmaz əlavə qeyri-müəyyənlik gətirir ki, Brüssel öz üzv dövlətləri ilə aktual problemlərin həlli üçün ümumi tədbirlər, o cümlədən müdafiənin maliyyələşdirilməsi və iqtisadi innovasiyalar üçün çox ehtiyac duyulan yeni alətlər barədə razılığa gəlməyə çalışır. Hazırkı vəziyyətdə Brüssel üçün müsbət cəhət ondan ibarətdir ki, Trampın 2016-cı ildə ilk gəlişindən fərqli olaraq, bu gün Avropa siyasi elitası onun baxışları və üstünlükləri haqqında aydın başa düşür, baxmayaraq ki, onlar çox da nikbinlik yaratmır.

Tramp çoxtərəfli ittifaqları sevmir, istər ticarət, istərsə də təhlükəsizlik, ABŞ-ın həmişə daha güclü göründüyü ikitərəfli ələqələrə üstünlük verir. O, antiqlobalistdir, Aİ-nin "yaşıl gündəliyi"nə qarşıdır və proteksionistdir və Amerikanın Avropa qarşısında öhdəliklərinin azaldılması və Amerika siyasi elitasının zehnində onun reytinqinin aşağı salınmasının tərəfdarıdır. Bu silsilədə müdafiə və ticarət Brüsseli ən çox narahat edən Avropa İttifaqı ilə ABŞ arasında münasibətlərin iki sahəsidir və birincisi Rusiya ilə Ukrayna arasında davam edən silahlı münaqişə kontekstində xüsusi əhəmiyyət kəsb edir.

Seçki kampaniyası zamanı Tramp Ukrayna münaqişəsinə 24 saat ərzində son qoyacağına söz verib. Ukraynaya əhəmiyyətli hərbi və maliyyə yardımı göstərən Avropa İttifaqı onun nizamlanmasını alqışlayardı, amma heç nəyin bahasına yox. Aİ-yə üzv ölkələrin hakim dairələrində belə bir fikir kök salıb ki, Ukrayna ilə bağlı epizod müstəsna hadisə deyil, ərazi, hərbi və siyasi münasibətlərdə Rusiya məkanının daha da genişlənməsinin xəbərçisidir. Brüsselin nöqteyi-nəzərindən Kiyevin tam təslim olması Aİ üçün qəbuledilməzdir, həm də ona görə ki, Avropanın siyasi elitası Ukraynaya yardımın böyük xərclərini seçicilərin qarşısında əsaslandıra bilməyəcək. Ağ Evin avropalı müttəfiqlərin bu mülahizələrinə məhəl qoymaması istər-istəməz Avropa və ABŞ arasında münasibətlərə təsir edəcək.

Trampın NATO-ya mənfi münasibəti kontekstində Aİ xarici təcavüz halında Avropanın ərazi müdafiəsi məsələsi ilə də üzləşir. İlk prezidentliyinin son ilində Tramp müdafiəyə az pul xərcləməyə davam edən müttəfiqləri tənqid edərək, Rusiyanı NATO-da bacara bilməyənlərlə "istədiyini etməyə" "sövq edəcəyi ilə" hədələmişdi. Avropa üçün belə bir bəyanat ABŞ-ın müttəfiqlərini müdafiə edəcəyi, yoxsa sadəcə NATO-dan çıxacağı sualını açıq qoyur. Trampın digər sülh təşəbbüslərinə gəlincə, avropalılar da haqlı olaraq qorxurlar ki, yeni prezidentin Yaxın Şərqdə sülhü təmin etmək planı yalnız İsrailin baş naziri Binyamin Netanyahuya qeyd-şərtsiz dəstək demək olacaq və fələstinlilərin Misirə, İordaniyaya köçürülməsinə və bölgədəki vəziyyətin gərginləşməsinə gətirib çıxara bilər.

Trampın prezidentliyi dövründə Avropa İttifaqı ilə ABŞ arasındakı münasibətlərdə ikinci və daha az ciddi olmayan ziddiyyət Vaşinqtonun ticarət proteksionizmi olacaq və bu, tarif müharibəsinə gətirib çıxara bilər. Tramp artıq "işlərimizi oğurlayan" bütün Avropa idxalına 10 və 20 faizlik tariflər tətbiq etməklə hədələyib. Bundan əlavə, The Economist-in qeyd etdiyi kimi, Trampın ilk prezidentlik dövründə təhrik etdiyi və sonra onun varisi Cozef Bayden tərəfindən "şişirdilmiş" ABŞ-ın Çinlə ticarət gərginliyi Avropadakı vəziyyəti daha da pisləşdirib. Çinin Amerikaya ixracına qoyulan məhdudiyyətlər onları daha açıq AB bazarına yönəldib. Bu cəbhədə artıq müharibə gedir. Tramp Çin mallarına rüsumları 60%-ə qaldıracağı ilə hədələyib, Aİ isə öz növbəsində oktyabrın 4-də Çinin elektrik avtomobillərinə 45%-ə qədər tarifləri təsdiqləyib.

Nəhayət, bir-biri ilə əlaqəli iki fenomen kontekstində Avropa İttifaqı üçün başqa bir təhlükə – Aİ-də sağçı populistlərin güclənməsi və Trampın qələbəsi – avroskeptik düşərgənin daha da genişlənməsi və güclənməsi ola bilər. Tramp heç vaxt Aİ-yə nifrətini gizlətməyib. O, çətin ki, Aİ-ni daxildən sarsıtmaq üçün əsas avroskeptiklərlə ikitərəfli əlaqələr vasitəsilə "ayağını aralıq qapıya qoymaq" vəsvəsəsinə müqavimət göstərsin. Beləliklə, Trampın ABŞ-la Avropa dövlət başçıları arasında ideoloji cəhətdən yaxın müttəfiqləri arasında beynəlxalq təhlükəsizlik və qlobal ticarətdən tutmuş Avropa layihəsinin gələcəyinə qədər hər şeyə təsir edəcək yeni transatlantik əlaqə yaranır.

Trampın bu sahədə qələbəsinə yeganə maneə onun Avropanın əsas ixracatçı ölkələrinə qarşı proteksionist siyasəti ola bilər. Keçmiş təcrübənin göstərdiyi kimi, Trampın siyasi çevikliyi və hətta öz strateji mənfəəti üçün belə hər hansı qurban verməyə meyli yoxdur. Belə ki, keçmişdə Trampa rəğbət bəsləyən fransız avroskeptiklərinin lideri Marin Le Pen ABŞ-ın Aİ-dən ixraca ciddi məhdudiyyətlər qoyması perspektivinə görə onun yeni qələbəsinə kifayət qədər təmkinli reaksiya verib. Bəzi hesablamalara görə, ABŞ-ın 10% tarifləri Aİ ixracatını ildə təxminən 150 milyard avro azalda bilər.

Qeyd edək ki, ABŞ-ın yeni administrasiyası ilə amerikan silahlarının alınması sahəsində sövdələşmələr təkcə avroskeptik ölkələri deyil, həm də cəbhə xəttində olan Avropa İttifaqı və Rusiya təhlükəsi ilə üzüzə qalan və müdafiə xərclərini artıran NATO ölkələrini (Polşa, Estoniya, Latviya) cəlb edə bilər. Avropalı analitiklərin fikrincə, bu cür sövdələşmələr Avropanın müdafiə sənayesində əməkdaşlıq üçün çox ehtiyac duyulan səyləri sarsıdacaq. Bu narahatlıqlara uyğun olaraq, Avropa Komissiyası təcili olaraq depressiyaya məruz qalmış regionların inkişafı üçün nəzərdə tutulan Birlik Fondundan müdafiə sənayesinin ehtiyacları üçün 392 milyard avronun çıxarılmasına qərar verib. Eyni zamanda, Brüsselin nöqteyi-nəzərindən Trampın hətta ABŞ-ın ən yaxın müttəfiqlərinə münasibətdə də istisna yaratmayan saf praqmatizmi Böyük Britaniya və Aİ-ni müdafiə-sənaye sahəsində daha sıx əməkdaşlığa sövq edə bilər.

Ən aktual problemlərin - Ukrayna münaqişəsi, qeyri-qanuni miqrasiya və Avropanın iqtisadi rəqabət qabiliyyətinin müzakirəsi üçün noyabrın 7-8-də keçirilən Avropa Siyasi Birliyinin Budapeşt Sammitində ABŞ-da prezident seçkiləri mövzusu diqqətdən kənarda qala bilməzdi. Onun ABŞ-ın yeni administrasiyası ilə münasibətlərin perspektivlərinə dair leytmotivi "birliyi qorumağa və Trampa şans verməyə" çağırış olub. Bununla belə, Londonda yerləşən Avropa İslahatları Mərkəzinə görə, bəzi Avropa paytaxtları Trampla fərdi sövdələşmələrə can atsa və bununla da Brüsseli sarsıdarsa, bu birlik dağa bilər. Trampın birinci müddətindən sonra Avropa liderləri razılaşdılar ki, onlar hər dörd ildən bir Ağ Evə kimin gələcəyini və bunun Avropa üçün nə demək olduğunu düşünməkdən yorulublar. Aİ üçün bu vəziyyətdən yeganə çıxış yolu yalnız Atlantikanın o tayındakı siyasi vəziyyətdən asılı olmayaraq, öz maraqlarını qorumaq üçün sarsılmaz öhdəliyə əsaslanan ümumi strategiyanın hazırlanması ola bilər.

**V.VƏLİYEV**

RAKURS

# Xaricdəki antimilli ünsürlər və dağıdıcı müxalifət ştatlı agentlərə çevriliblər




*Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası həm təşkilatçılıq, həm iştirak, həm də əldə olunan nəticələrə görə tarixi tədbir oldu. Baxmayaraq ki, paxıllıq və qısqanclıq səbəbindən ABŞ-ın və Avropanın bəzi hökumət və dövlət başçıları, Avropa İttifaqının və Avropa Komissiyasının dirijor çubuğu ilə idarə olunan prezidenti Ursula fon der Lyayendir konfransın nəticəsiz başa çatmasına, hətta iqlim dəyişikliyinə qarşı mübarizə məqsədlərinə mümkün qədər az vəsaitin ayrılmasına cəhdlər göstərdilər.*

COP29-da Avropa İttifaqını təmsil edən, bir neçə gündür ki, Bakıda meydan sulayan Almaniyanın xarici işlər naziri Annalena Berbok iqrilm məsələləri ilə məşğul olmaq əvəzinə Bakıdakı və Avropadakı satqın, xəyanətkar azərbaycanlı adına iddia edən şəxsləri daha da dövlətimizə və xalqımıza qarşı şər və böhtan kampaniyasına, təhqir və söyüşlərə həvəsləndirmək üçün müxtəlif qapalı görüşlər təşkil edir, mətbuata konfransları keçirir və nasistlərəxas populist fikirlər, bəyanatlar səsləndirir. Hətta o qədər çaşır və həyəcanlı olur ki, ailədaxili problemlərini, xüsusilə gecə həyatından qəhərli ifadələr söyləyir. Ara-sıra qarşısına qoyulan kağıza nəzər yetirib, Azərbaycanda insan hüquqlarının vəziyyətindən də danışır və yenə də gözlərini önündəki kağızdan çəkmədən iddia edir ki, guya Azərbaycanda insan hüquq və azadlıqları sahəsində problemlər var.

## Annalena Berbok etiraf etdi- nasistlər Almaniyada hakimiyyətə gələ bilər

Noyabrın 22-də Turan agentliyinin ofisinə baş çəkən Annalena Berbok Turan agentliyinin direktoru Mehman Əliyev, ev dustaqlığında olan Qubad İbadoğlu, hüquqşünas kimi təqdim olunan Şəhla Hümbətova və digərləri ilə qızğın dedi - qodular edib, yalanlardan danışıb, uydurma məlumatlara baş vurub. Sözündən, söhbətindən belə anlaşılıb ki, Almaniyada planlaşdırılan 23 fevral 2025-ci il növbədənkənar parlament seçkilərindən sonra yeni rəhbərliyə gələcək nasistlərin köməyi ilə Avropada yaşayan antimilli ünsürlər və Azərbaycandakı dağıdıcı məxluqlar ”xoşbəxt günə” çıxacaq maddi və mənəvi cəhətdən hər cür yardıma sahib olacaqlar. Bununla belə madmuazel nazirin görüşdən heç də tam şəkildə razı qalmadığı qeyd olunur. Belə ki, qapalı görüşdə Mehman Əliyevin rəhbərlik etdiyi agentliyin maliyyə problemləri ilə üzləşməsindən gileylənməsi, Qubad İbadoğlunun mövzuya və müzakirələrə aidiyyatı olmayan məsələlərdən - neft satışından, neftin ucuzlaşmasından, Anqola və Nigeriya barədə qarışıq və anlaqsız ifadələrlə çıxış etməsi, Şəhla Hümbətovanın aviabiletlərin bahalığından, yollarda cansıxıcı tıxacların olmasından danışması, vətəndaş cəmiyyəti institutunun təmsilçilərinin dolayısı yolla qranta ehtiyaclarının olmasını bildirmələri Almaniyalı naziri heç də məmnun etməyib. Ona görə də, Annalena Berbok narazılığını görüşün təşkilatçısı olan Almaniyanın Azərbaycandakı səfirliyinin əməkdaşına qəzəblə baxıb, başını bulamaqla çatdırıb. Yəni demək istəyib ki, bu problem yığnağı ilə görüşə nə ehtiyac vardı. O, gözləyirdi ki, görüş iştirakçıları Azərbaycan hakimiyyətini tənqid edəcək, ölkədə media azadlığının pozulmasından, insanlara qarşı haqsız davranışın olmasından, ən əsası Azərbaycan xalqına qarşı cinayətlər törətmiş Arayikin, Vardanyanın, Saakyanın, Qukasyanın və digərlərinin azad edilməsini xahiş edəcəklər. Lakin arzu etdiklərinin heç biri olmadı və bu səbəbdən də suyu süzülmüş aşsüzən kimi boynubükük formada Turan informasiya agentliyinin ofisini tərk edib.

## Annalena Berbok boşanma xəbərinin stresini aradan qaldırmaq üçün gecəni səhərə qədər hərtərəfli istirahət edib

Yazılı açıqlamada isə görüş barədə fərqli müzakirələrin aparıldığı iddia edilib. Qeyd olunub ki, guya görüşdə Azərbaycanda vətəndaş cəmiyyətinin və medianın vəziyyəti, Bakı ilə Yerevan arasında sülh sazişinin perspektivləri, COP29 konfransının yekunları və ümumilikdə ekoloji problemlər ətrafında fikir mübadiləsi aparılıb. Birdə ki, Qubad İbadoğlu, Şəhla Hümbətova və digərləri hansı ağıla və dərrakəyə sahibdirlər ki, qlobal bir məsələ ətrafında müzakirə aparsınlar, təklif və ideya irəli sürsünlər? Onlarınkı ancaq məişət söz-söhbəti və xırda dedi-qodu ola bilər ki, onu da ediblər. Kim nəyi bacarır və deyə bilirsə onu da edir. Təbii ki, yazılı açıqlama hər iki tərəfi qane edir. Daha çox da Berboku vəziyyətdən çıxartmağa hesablanıb. Çünki Avropadakı Azərbaycana qarşı məkrli şəbəkə Annalena Berbokdan Bakıda nəzərdə tutulan işlərin görülüb-görülməməsinə dair izahat tələb edəcək. Berbok əlində yazılı faktı böyük ağalarına təqdim etməklə tənbehdən və qınaqdan xilas olmağa çalışacaq. Planını nə dərəcədə yerinə yetirə biləcəyini demək çətin olsa da, diqqətçəkən məqam ondan ibarətdir ki, görüşdən sonra da A.Berbok qayğılı və narahat görünüb. Bu səbəbdən də otelə qayıdaraq masaj salonuna daxil olub, saunaya baş vurub, bir neçə yekəpər mühafizəçi adlı ”dost”larının iştirakı ilə otaqda yeyib içib şənlənib. Düzdür, iddialar ondan ibarətdir ki, madmuazel nazir 17 il formal da olsa birgə nikahda yaşadığı ”kişi”sindən həmən gün rəsmən boşanmasına dair vəkilindən məlumat alıb. Məhz aldığı sevincli xəbəri yumaq və ya bunun stresini aradan qaldırmaq üçün gecəni səhərə qədər hərtərəfli istirahət edib. Səhəri günü COP29 konfransına getməli və çıxış etməsi barədə onu məlumatlandıranda o üzgözünə və əyin başına əl gəzdirmədən oteldən çıxaraq COP29 konfransına gedib.





Annalena Berbok COP29-un müzakirələrində gərginlik yaratmağa və məsələnin nəticəsiz qalmasına çalışıb

Annalena Berbok COP29-un keçirldiyi konfrans zalında özünü rəsmi dövlət adamı kimi aparmayıb. Annalena Berbok müxtəlif məzhəkələr, şoular qurmaqla və ideyalar irəli sürməklə COP29-un müzakirələrində gərginlik yaratmağa və məsələnin nəticəsiz qalmasına çalışıb. Ancaq tədbirə Azərbaycan kimi sivil, demokratik, böyük gücə malik dövlətin ev sahibliyi etməsi və beynəlxalq ictimaiyyətin təzyiqləri ABŞ-ı və Qərb dövlətlərini güzəştə getməyə məcbur etdi. Beləliklə, COP29 Paris Sazişinin 6-cı maddəsi üzrə uzun illər davam edən mübahisələrə son qoyan mühüm bir platforma oldu. Bakıda intensiv müzakirələrdən sonra maddənin 6.2, 6.4 və 6.8 bəndləri üzrə razılıq əldə edildi. Paris Sazişinin 6.4 bəndi karbon bazarının yaradılmasını nəzərdə tutur. Bu bazar, ölkələrin karbon emissiyalarını ticarət obyektinə çevirməsinə imkan verir. COP29 konfransında qəbul edilən yeni maliyyə hədəfi, iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərin gücləndirilməsi baxımından tarixi bir qərardır. Bu hədəfə əsasən, inkişaf etmiş ölkələr hər il inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizə məqsədilə 100 milyard dollar ayıracaq və bu məbləğ 2035-ci ilədək 300 milyard dollara çatdırılacaq. Paris Sazişinin imzalandığı 2015-ci ildən keçən dövr ərzində yekdil qərar qəbul edilməsi mümkün olmayan bu məsələnin məhz Bakı görüşündə razılaşdırılması ölkəmizin qlobal miqyasda ekoloji problemlərin həllinə mühüm töhfə verməsinin bariz nümunəsidir.

## Xaricdəki antimilli ünsürlər təsdiqlədilər: Satqının vətəni olmur

Sübuta yetirilir ki, ABŞ, Avropanın bəzi ölkə başçıları, eləcə də xaricdəki antimilli ünsürlər və daxilidəki dağıdıcı müxalifət Azərbaycanın BMT sistemində ən böyük tədbir olan COP29-a yüksək səviyyədə ev sahibliyi etməsini həzm edə bilmirlər. Xüsusilə Bakıda Paris sazişinin 6.2, 6.4 və 6.8 bəndləri üzrə razılıq əldə edilməsi məkrli dairələrin kürkünə birə salıb, qısqanclıq və paxıllıq hissindən bağırları çatlayır. Ona görə, bütün mümkün vasitələrlə uğura kölgə salmağa çalışırlar. Bu məqsədlə dövriyyə yenə də Orduxan Bəbirovu, Qabil Məmmədovu, Orxan Ağayev, Rəfael Piriyev, Tural Sadıqlı, Məhəmməd Mirzəlini, Süleyman Süleymanlını, Arif Məmmədovu, Fikrət Hüseynlini, Sevinc Osmanqızını və digər evlərində dədəsinin deyil hansısa erməni diaspora nümayəndəsinin və ya Misyo Jordanın, Conun, Cekin canına and içən ünsürləri salıblar. Əsasən Fransa, İsveçrə, Hollandiya və Almaniyada məskunlaşan bu zir zibillər bütün günü Azərbaycan dövləti və xalqı haqqında təhqiramiz ifadələr səsləndirir, ittihamlar irəli sürülər. Son günlər fəaliyyətlərini genişləndirmələri də sərt göstəriş almalarından irəli gəlir. Fransada məskunlaşan antimilli ünsürlərin daha çox söyüş və təhqir elementlərindən istifadə etmələri onların boyunlarındakı halqalı kəndirin sərt şəkil də çəkildiyini göstərir. Əllərində dollar, avro tutaraq insanların heysiyyatına, mənliyinə toxunan ifadələrlə çıxış etmələri onların hər söyüş və təhqir üçün maliyyə yardımları aldıqlarını göstərir. Həm də təsdiq olunur ki, bu yaramaz ünsürlər əsasən Fransa, İsveçrə, Hollandiya, ABŞ, Almaniya və hazır ki fars-molla rejiminin nəzarət etdiyi torpaqlarda məskunlaşıb, söyüş və təhqir elementlərini ifraz etsələr də, əsas kurasiya yeri Fransadır. Yəni anti-Azərbaycan qüvvələrin kurasiyası Fransa xüsusi xidmət orqanları tərəfindən həyata keçirilir.

## Avropadakı antimilli ünsürlər manqurtlaşıblar

Xaricdəki antimilli ünsürlərə tezis göndərən, mütəmadi şəkildə onlarla görüşüb pul verən şəxslər də Fransa xüsusi xidmət orqanlarının agentləridir. Trol Sadqlının, Məhəmməd Mirzəlinin, Qənimət Zahidin və digərlərinin Fransada oturub millətimizin az qala hər bir üzvünü şərəfsizcəsinə təhqir etmələri, gecə yarısı insanlara zəng edib söymələri Makronun tabeliyində olan xüsusi xidmət orqanlarının çox iyrənc işə baş vurduqlarını göstərir. Hətta o dərəcə Fransanın xüsusi xidmət orqanları özbaşınalıq edir, oradakı azərbaycanlı mühacirləri oyuncaq hesab edirlər ki, bəzən Ermənistan xüsusi xidmət orqanları tərəfindən onlara göndərilən tezisləri də səsləndirir, status şəkilində paylaşırlar. Bu isə mübaliğəsiz təsdiq edir ki, Avropadakı antimilli ünsürlər manqurtlaşıblar. Sabah bu manqurt yığnağı öz əzizlərinə güllə atsa və ya onlara qarşı terror aktları həyata keçirsə, təəccüblü görünməz. Çünki manqurtlar düşünmək və qərar vermək imkanına malik olmurlar. Manqurtlar ancaq onları idarə edən ağalarının səsini, əmrini eşidir və icra edirlər.

**İLHAM ƏLİYEV**




# 75 yaşlı Sumqayıt şəhəri

## Prezident İlham Əliyev: "Sumqayıt müasir, dünya səviyyəli sənaye mərkəzinə çevrilib"

***Azərbaycanın bütün bölgələri, şəhər və kəndləri, qəsəbələri kimi Sumqayıt şəhəri də yeni inkişaf dövrünü yaşayır. Burada aparılan abadlıq-quruculuq işləri şəhərin gözəlliyinə daha bir rəng də əlavə edib. Dövlətimiz tərəfindən inkişafa və quruculuğa verilən töhfələr Sumqayıtın inkişafında da müstəsna əhəmiyyət daşıyır.***

Əhalisinin sayına görə və sahəsinə görə Bakıdan və Gəncədən sonra üçüncü böyük şəhər olan Sumqayıt yarandığı dövrdən etibarən, müasir sənaye şəhərinə çevrilmək istiqamətində qazandığı uğurların miqyasını ildən-ilə genişləndirərək parlaq inkişaf yolu keçib. Özünün iri müəssisələr şəbəkəsi və müvafiq infrastrukturunu formalaşdıran şəhər qısa müddət ərzində ölkənin aparıcı sənaye mərkəzlərindən biri kimi tanınmış, eyni zamanda, mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə böyük müvəffəqiyyətlər əldə etmişdir. Özünəməxsus inkişaf yolu keçən Sumqayıt şəhəri yarandığı zamandan inkişaf mərhələləri keçmişdir.






1949-cu il – Azərbaycan Ali Soveti Prezidiumunun qərarı ilə Sumqayıta şəhər statusu verilib. Tez bir zamanda Sumqayıt Alüminyum zavodu, elmi-tədqiqat institutları və mədəniyyət mərkəzləri tikilir, şəhər infrastrukturu inkişaf etdirilir. Burada Avropanın ən böyük neft-kimya kombinatının tikintisinə başlanılıb. Bir-birinin ardınca yeni müəssisələr - kərpic zavodu, polimer tikinti materialları kombinatı, superfosfat zavodu, tikilərək istehsala başlayır.

### CƏNUBİ QAFQAZIN SƏNAYE MƏRKƏZİ

Azərbaycanın, eləcə də Cənubi Qafqazın mühüm sənaye mərkəzlərindən biri kimi tanınan Sumqayıtın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Şəhərin sosial-iqtisadi, o cümlədən, elminin, təhsilinin, mədəniyyətinin inkişafına Ulu Öndər Heydər Əliyev böyük töhfələr vermişdir. Ümummilli Liderin bu sənaye şəhərinə hər səfəri Sumqayıtın tarixində önəmli rol oynamışdır. Ulu Öndərin sovet hakimiyyəti illərində ölkəyə rəhbərlik etdiyi illərdə bu şəhərdə yüngül sənaye müəssisələri və sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi. Ötən əsrin 70-ci illərinin əvvəllərində əhalinin məişət kimyası mallarına olan tələbatı ödəmək məqsədilə Zaqafqaziyada ilk dəfə olaraq Sumqayıt Məişət Kimyası Zavodu yaradıldı, "Superfosfat" zavodunda yüksək texnologiya əsasında inşa edilərək dənəvər superfosfat gübrəsi istehsalatı işə salındı. 1970-73-cü illərdə "Üzvi sintez" zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexləri fəaliyyətə başladı. Daha sonra Kompressorlar zavodu, Üst trikotaj və Xovlu İplik fabrikləri, Süd və Yeyinti məhsulları kombinatları istifadəyə verildi. Bir-birinin ardınca istifadəyə verilən müəssisələr bu gənc şəhərin inkişafında mühüm rol oynadı.



### "SUMQAYIT TARİXƏN KİMYAÇILAR ŞƏHƏRİ KİMİ SALINMIŞDIR"

Bu gün Ulu Öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar nəticəsində Sumqayıt yeni bir dövrünü yaşayır. Prezident İlham Əliyevin apardığı iqtisadi və sosial siyasəti nəticəsində həyata keçirilən dövlət proqramlarının uğurla icrası Sumqayıt şəhərinin də inkişafında mühüm rol oynadı. Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Kimya Parkının yaradılması ölkə başçısının şəhərdə sənayenin inkişafına göstərdiyi böyük dəstəyin təzahürüdür.

Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunur.

Prezident Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, Sumqayıt tarixən kimyaçılar şəhəri kimi salınmışdır, Sovet İttifaqının kimya sənayesinin mərkəzi olmuşdur: "Bu gün isə Sumqayıt müasir, dünya səviyyəli sənaye mərkəzinə çevrilib. Qarşıya məhz belə vəzifə qoyulub ki, Sumqayıtda ən müasir sənaye müəssisələri yaradılmalıdır. Bu, bizim ümumi sənaye potensialımızı gücləndirəcək, minlərlə, on minlərlə yeni iş yeri yaradacaq. Mən çox şadam ki, bu gün Sumqayıtda artıq icra edilmiş və icrada olan sahələr bu məqsədi təmin edib".

Son illərdə gücü 525 MVt olan Elektrik stansiyası, "Sumqayıt-3" yarımstansiyası tikilmiş, "Azərkimya" İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki və s. müəssisələr yaradılmışdır. Bu siyahını görülən işlərin məntiqi olaraq artırmaq olar. Bu və ya digər müəssisələrin istifadəyə verilməsi şəhərin inkişafının göstəriciləridir.

Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışı inkişaf edən Sumqayıta töhfə oldu. Vurğulamaq yerinə düşər ki, dövlət başçısının tapşırığına əsasən, 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilmiş və proqram çərçivəsində 12 elektrik stansiyasında və 23 yarımstansiyada yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib. Sumqayıt Məhkəmə Kompleksinin açılışı da şəhərdə görülən işlər sırasındadır. Öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir.

### ŞƏHƏRİN İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏR DÖVLƏT BAŞÇISININ SƏRƏNCAMI İLƏ TƏLTİF OLUNUBLAR

Azərbaycan Prezidenti İlham Əliyevin ölkə həyatının bütün sahələrinə olduğu kimi, təhsil sektoruna da göstərdiyi diqqət və qayğı nəticəsində bu sahədə islahatlar daha da dərinləşib. Təhsilin keyfiyyətinin yüksəldilməsində məktəb infrastrukturunun inkişafı da böyük əhəmiyyət kəsb edir. Son illərdə ölkəmizdə ümumtəhsil məktəblərinin təmir-tikinti işləri davamlı xarakter alıb və bu, təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Ölkəmizin hər yerində müasir tipli təhsil müəssisələri şagirdlərin ixtiyarına verilir. Bu, Sumqayıt şəhərindən də yan keçməyib. Heydər Əliyev Fondu tərəfindən burada 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəb inşa olunub. Təhsil müəssisəsində 42 sinif otağı, fənn kabinələri, laboratoriyalar, əmək və hərbi təlim otaqları, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə də yaradılan şərait Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının əyani göstəricisidir. Əlbəttə ki, yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir.

Prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə şəhərdə görülən kompleks abadlıq və quruculuq işləri, yeni və möhtəşəm infrastruktur layihələrinin həyata keçirilməsi Sumqayıtda yeni ab-hava yaradıb. Son illərdə Sumqayıtda onlarca yeni istehsal müəssisələrinin yaradılması, mədəniyyət və elm müəssisələrini fəaliyyətə başlaması şəhərin uğurlu inkişafına yollar açıb və müasirləşən, inkişaf edən şəhərə çevirib.

Bu gün Sumqayıt şəhəri 75 yaşını qeyd edir. Sumqayıt şəhərinin 75 illiyi münasibətilə şəhərin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında xidmətləri olan şəxslər Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni və "Tərəqqi" medalları ilə təltif olunublar. Özünün inkişaf dövrünü yaşayan Sumqayıtın sosial-iqtisadi mənzərəsi və elmi-mədəni həyatı Azərbaycanın müasir nailiyyətlərini özündə dolğun təcəssüm etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Başını elə formada bağlayır ki, sanki başında "Qız Qalası" var"




*Dizayner-modelyer Şəlalə Maqsudovanın SİA-ya müsahibəsini təqdim edirik:*

***- Son zamanlar gənclərin geyim tərzi cəmiyyətin əsas müzakirə mövzularından birinə çevrilib. Kimisi qızların açıq-saçıq geyinməsindən, kimisi də oğlanların rəngli geyim tərzinə üstünlük verməsindən danışır. Yaşlı nəsil gənclərin geyimindən narazılığını bildirir. Siz bu barədə nə düşünürsünüz?***

- Son zamanlarda cavanların geyim tərzləri çox müzakirələrə səbəb olur. Bəzən açıq-saçıqlığı ilə, bəzən getdikləri yerlərə aidiyyəti olmayan geyimləri ilə çox müzakirələr yaradırlar. Əlbəttə ki, mən bir dizayner-modelyer olaraq dəbi yaxından izləyirəm. Nələrin gündəmdə olduğunu, hansı rənglərin, formaların dəbdə olduğunu görürəm. Çox təəssüf edirəm ki, son dövrlərdə internet əsri olmasına baxmayaraq cavanlar abartılı dərəcədə geyinirlər. Bu da qınaq obyektinə çevrilir. Çox istərdim ki, cavanlar dəbi izləsinlər, amma yaraşanı geyinsələr daha yaxşı olar. Çünki cavanlar necə gəldi geyinirlər. Fikir verirəm ki, bəziləri diqqət çəkmək üçün, bəziləri də düşünmədən necə gəldi geyinirlər.

***- Dəb nə deməkdir? Dəb anlayışı nədir?***

- Xarici dizaynerləri yaxından izləyirəm. Öz işimlə əlaqədar olaraq modanı diqtə edən Milan şəhərinə belə getdim. İstəyirdim ki, dəblə çox yaxından tanış olum, dəbin nə olduğunu bilim. Hər il, hər fəsil yeni geyimlər ortalığa çıxır, yeni parçalar, yeni formalar ortaya atılır. Dəbi izləyən bir kütlə bu ortaya atılan geyimlərin arxasınca qaçır. Çox təəssüf edirəm ki, dəbin arxasınca qaçan kütlə onu yaxşı diqtə etməyi bacarmır. 2010-cu ildə tanınmış dizaynerlər ortalığa sarı rəng dəbi atdılar. Mən çox yaxşı xatırlayıram ki, insanlar bütünlüklə sarıya bürünmüşdülər. Çantaları, ayaqqabıları, paltarları, yaşından asılı olmayaraq hər kəs sarı rəngə boyanmışdı. Yaşlı nəslin nümayəndələri belə sarı rəngə müraciət edirdilər. Bu, bir az gülünc görünürdü. Bunu trend halına salmışdılar. Dəb mənim üçün yaraşanı geyinmək deməkdir. Əgər mən bu geyimi daşıyıramsa, o mənim üçün dəbdir. Bu il cırıq şalvarlar, cırıq köynəklər əgər dəbdədirsə, o mənə yaraşmırsa, onu geyinə bilmərəm. Öz bədənimi tanımalıyam, öz komplekslərimi bilməliyəm ki, mənə bu il dəbdə olan geyim yaraşmalıdır. Əgər bu il dəbdə olan geyim mənə yaraşmırsa, onu geyinə bilmərəm. Mən onu insanlara təqdim edə bilmərəm. Çox istəyərəm ki, cavanlarımız dəbi izləsin, amma bədən komplekslərini bilərək buna uyğun geyinsinlər.

***- Xanımlarımız gəlinlik libasında sport ayaqqabı ilə geyimi tutuşdurmağa çalışırlar. Bu da dəb sayılır?***

- Fikir versək, son zamanlar toylarımızda gəlinliklərdə belə dəyişikliklər olub. Bəzən gəlinlik gödək, rəngli olur, bəzən də sport ayaqqabı ilə uyğunluq yaratmağa çalışırlar. Cavanlarımız bir növ Avropasayağı görünməyə çalışırlar. Təbii ki, onların seçimləridir. Çünki bu seçimə heç cür müdaxilə etmək olmur. Yetişən cavan nəslin fikrində tamam başqa ideyalar formalaşır. Belə görürəm ki, Avropaya daha çox meyl edirlər. Əvvəlki gəlinliklərlə müqayisə etsək, görərik ki, fatalar, bağlılıq ortadan çıxır, açıq-saçıqlığa, sərbəstliyə daha çox üstünlük verilir.

***- Bəs onlar bu qədər əziyyət çəkirlər. Heyifləri gəlmir ki, sport ayaqqabı ilə gəlinliyi korlamağa çalışırlar?***

- Yəqin ki, onların düşüncəsində bu həm sadəlik kimi qəbul olunur, həm də Avropada məhz budur. Nə qədər xanımlar var ki, hətta nikah geyimində belə geyimlərini fərqli istəyirlər. Amma mən araşdırıb baxıram ki, artıq o nikah geyimləri avropalı xanımların geyim tərzinə uyğundur. Soruşanda da topuqlu ayaqqabı ilə geyinməyəcəklərini deyirlər. Niyə sport ayaqqabı istədiklərini soruşuram. Deyirlər ki, mənim üçün rahatdır. Düşüncə tərzi budur. Həmin xanımlar ətraflarında ancaq cavanları görmək istəyirlər. Bu da onların düşüncə tərzidir ki, rahatlıq istəyirlər. Bir növ onların içində açıq-saçıqlıq da var.

Mənim geyimlərimdə açıq-saçıqlıq olmur. Hər zaman yetişən nəslə də geyimlə örnək olmaq istəyirəm. Çünki geyim mədəniyyətdir. Geyim insanın təqdimatıdır. Ümumiyyətlə, geyimdə hansısa qadağanı qoymaq qeyri-mümkündür. Bunu ancaq insanların öhdəsinə buraxırlar. Qınaqla seçilir, indiki zamanda heç kimə qadağa qoymaq mümkün deyil. Çünki hər kəsin öz seçimi var. Cavan nəslin evdə valideyni belə öhdəsindən gələ bilmir.

***- Təkcə açıq-saçıqlıqdan danışmırıq. Reallıq budur ki, paytaxtın küçələrində oğlanlar da şapiklərdə sərbəst şəkildə gəzirlər. Bəs bu necə qəbul olunmalıdır?***

- Bizim cavan nəsil avropasayağı geyinməyə çalışır. Avropada olanda gördüm ki, hər kəsin paltarları qırışdır, çox rahat gəzirlər. Heç kim heç kimə fikir vermir. Ordakı səhnələri artıq Bakımızda da görürəm. Bunu da normal qarşılayırlar. Ayıb, qınaq deyilən bir şey ortada qalmır. Əslində rahatlıq üçün əndazəni aşmamaq daha yaxşı olardı.

***- Başı bağlı dar geyim tərzinə toxunaq. Əsl hicab geyimi necə olmalıdır?***

- Son dövrlərdə başı bağlayıb bədəni dar geyinmək o qədər artıb ki, mən buna çox pis baxıram. Bəzən xanımlarımız yanıma gəlir, başını elə formada bağlayır ki, sanki başında Qız qalası var. Bədəninə isə dar paltar geyinib. Həmin xanım kilolu olur və məndən də dar paltar istəyir. Düşünürəm ki, başı bağlamaq nədir, belə dar paltar istəmək nədir? Bu, dinin təbliği deyil, bu sadəcə vizual görüntü ilə insanları aldatmaqdır. Ondansa, başını açıb dar paltarı geyinsə daha yaxşıdır. Çünki insanları aldatmaq lazım deyil.

***- Açıq geyim əxlaq ölçüsü sayılmamalıdır, siz bu barədə nə düşünürsünüz?***

- Açıq geyim deyəndə bir var ki, yarım metrdən çıxarılan geyim, bir də var, normasında açıq geyim. Normasında olarsa, buna pis baxmıram. Məsələn, efirdə alt paltarını göstərmək artıq qınaq obyektidir.

***- Sizcə xanımlar açıq geyinməklə nə demək istəyirlər?***

- Çox zaman belə fikirləşirəm ki, əgər xanımın bədən quruluşu gözəldirsə, onu göstərmək yanlış fikirdir. Moda aləmində dizaynerlər heç vaxt yarım metrdən hazırlanmış geyimləri dəb halında ortalığa çıxarmayıblar. Dəb ildən-ilə dəyişir. Heç bir moda tarixdən silinmir.

**Söylü Ağazadə**

# Xalaqızı, bibiqızı, əmiqızı, dayıqızı bunlar islamda naməhrəm sayılır?

***"Xalaqızı, bibiqızı, əmiqızı, dayıqızı bunlar İslamda naməhrəm sayılır. Bu Qurani-Kərimin Nisa surəsində Allah-təala tərəfindən göndərildiyi bir təlimatdır, qanundur ki, insan kiminlə ailə qura bilərsə, həmin şəxs ona naməhrəm sayılır. Yəni, arada kəbin, nikah olmadan toxunmaq, təmas olmaz. İslam qanunlarına əsasən."O mənim bacımdır", "Bu mənim qardaşımdır" demək kifayət etmir. Danışıqda sərhədləri aşmaq olmaz və bu kimi digər qanunlar bura aiddir". Bu sözləri SİA-ya açıqlamasında din xadimi Mircəfər Əyyubov deyib.***



## DİN XADİMİ AÇIQLADI

Mircəfər Əyyubov sözlərinə belə davam edib: "Örtüklü olmaq vacibdir, qardaşın, atanın yanında gəzdiyi kimi dayıoğlunun, bibioğlunun, əmioğlunun, xalaoğlunun yanında gəzmək olmaz. Çünki islama görə şeytan istənilən halda vəsvəsə edir, insanı günaha təhrik edir, hətta Qurani-Kərimdə Allah-təala buyurur ki, Allah-təala həm gözdan bu qanunsuzluqla bu işin halal olduğunu təbliğ edirsən. Halbuki Allah deyir halal deyil, olmaz. İkincisi biz haradan bilək ki, sənin qəlbindən nə keçir. Yəni azmı olub belə xəyanətlər, təcavüzlər? Azmı olub belə fəsadlar? Odur ki, Allah-təala yəni, bizi yaradan bizim həm fitrətimizdən, həm təbiətimizdən xəbərdar olan, bizi bizdən yaxşı tanıyan varlıq əmr edir ki, Qurani-Kərimdə Kainat və həyat kitabında, qanun kitabında buyurur ki, mən icazə vermirəm mənim haram saydığım münasibətlər olsun.

Qaldı ki, sosial şəbəkələrdə danışmağa qeyd olunduğu kimi danışmaq icazəlidir bir



şərtlə ki, sərhədlər aşılmasın. Baxın, kişi ilə qadın, oğlan ilə qız arasında bir maneə olur. Adətən oğlanlar və qızlar o maneəni keçə bilmirlər, bir həya, bir utanmaq sərhəddi olur. O sərhədi keçməyə cəsarət etmirlər. O sərhədi keçmədikcə bir-birilərinə yaxınlaşmaq, fəsad törətmək, günah işlətmək kimi bir variant qalmır. Lakin şeytan sosial şəbəkələr kimi və yaxud xalaqızıdır, dayıoğludur, bibiqızıdır, əmioğludur bəhanələri kimi variantlarla o maneəni aşır. İnsanlara bildirir ki, sən niyə ondan qaçırsan, o da sənin xalan oğludur, o da sənin bibin qızıdı və ya sosial şəbəkələrdə üzüzü görmür, göz-gözü görmür, utanmır, xəcalət çəkmir, o əngəli, o sərhədi aşır. O sərhədi aşdıqdan, həya pərdəsi götürüldükdən sonra artıq ikisinin də hər şey etməyə cəsarəti çatır. Elə İslamın hicab qanunundan tutmuş bütün naməhrəmlik qanunları buna əsaslanır ki, imkan verməyin aradakı o pərdə götürülsün".

lərinizin xəyanətindən xəbərdardır, (bilir gözləriniz necə xəyanət edir, bilir gözucu necə naməhrəmə baxırsınız, bilir gözucu necə şorgözlük edirsiniz və qəlblərinizdə olan niyyətlərinizdən də xəbərdardır). Yəni ola bilər, bir xalaoğlu ilə xalaqızı zahirən desin ki biz bacı-qardaşıq, amma şeytan onun qəlbində vəsvəsə etsin və o bacı-qardaş niyyəti ilə deyil, başqa niyyətlə təmas qursun, söz danışsın, söz atsın və s. Hətta bunlar olmasa da belə bilirsiniz ki, qanun qanundur. Bunun misalını biz başqa sahələrdə görə bilərik. Tutalım, bir nəfər bilmədən yol hərəkət qaydasını pozsa, yenə də yola nəzarət edən qurumlar onu bağışlamır. Çünki qanun qanundur, bildin-bilmədin insanlar arasında təhlükəli vəziyyətlərə gətirib çıxaracaq qanunsuzluqlara yol vermək olmaz. Bu da belədir. Ola bilər kimsə desin ki,yox xalam qızına mən bacı gözü ilə baxıram, dayım oğluna qardaş gözü ilə baxıram və s. Amma İslam dini deyir ki, Allah-təala buyurur ki, birincisi sən ən azın-

**Ayşən Vəli**






# Paşinyanın uydurmalarından, nağıllarından FƏRQLİ REALLIQ

***Zəngəzur dəhlizinin yaxın zamanda reallığa çevriləcəyi artıq şübhə doğurmur və erməni baş nazir Nikol Paşinyanın bütün vədlərindən, nağıllarından fərqli olaraq, daha real görünür. Bunu haylar özləri də yaxşı başa düşürlər və etiraf da edirlər. Etiraf edilər ki, Paşinyanın daxili auditoriyanı aldatmaq üçün verdiyi bütün vədlər, danışdığı bütün nağıllar heç də inandırıcı deyil və reallıqdan uzaqdır. Çünki məhz Zəngəzur dəhlizinin istənilən halda ən yaxın zamanda mövcud olacağı erməni baş nazirin nağıllarından fərqli və təkzibedilməz reallıqdır.***






### Zəngəzur dəhlizi layihəsi mütləq reallaşacaq və buna reallıq kimi baxmaqdan başqa hayların özlərinin də çıxış yolu, çarələri qalmayıb

Nikol Paşinyanın nə danışmasından, nələri vəd etməsindən, daxili auditoriyaya hesablanan hansı uydurmalar ortaya atmasında asılı olmayaraq, nə Azərbaycan, nə də heç qardaş Türkiyə Zəngəzur dəhlizi layihəsindən imtina edən deyil. Həmin layihə hər iki qardaş ölkə üçün ciddi perspektivlər vəd etdiyi üçün onun reallaşması mütləq şəkildə olacaq və buna Cənubi Qafqazın məhz Ermənistan kimi hansısa cırtdan dövləti, səfalət içərisində olan, söz sahibi olmayan bir ölkəsi qətiyyən mane ola bilməyəcək. Biz sözlə, Zəngəzur dəhlizi layihəsi istənilən halda mütləq reallaşacaq və buna reallıq kimi baxmaqdan başqa hayların özlərinin də çıxış yolu, çarələri qalmayıb. Əslində, erməni əsilli siyasətçilərin, polotoloqların əksəriyyəti bunu indidən bəyan edirlər. Daha dəqiq desək, hayların öz "başbilənləri" belə bu reallığı qəbul etmək məcburiyyətində qaldıqlarını çoxdan etiraf edirlər.

Haylar bilirlər ki, Ermənistan hakimiyyəti kommunikasiya məsələsinin guya "sülh müqaviləsi" üzrə danışıqlardan çıxarıldığını növbəti ağ yalan olaraq, erməni cəmiyyətinə sırıyır. Bilirlər ki, rəsmi İrəvanın belə bir şansı da yoxdur və məğlub durumda olan bir ölkə hakimiyyətinin hansısa şərtlə çıxış etməsi barədə uydurmaları ancaq nağıl kimi görünə bilər. Artıq çoxdandır ki, ermənilər başa düşürlər ki, Paşinyan hakimiyyəti hər dəfə diplomatik məğlubiyyətin ardınca utanmadan iddia ilə, özü də əsassız və uydurma iddia ilə çıxış etməyi ənənə kimi qəbul edir. Amma haylar daha bu "ənənənin" uzun müddətdir davam etdiyini də görürlər və yalanların da fərqindədirlər. Onun da fərqindədirlər ki, rəsmi Bakı onların nazı ilə oynamaq kimi bir "öhdəliyi" öz üzərinə götürməyib və lazım olan məqamda şərt, hətta çox sərt şəkildə bununla bağlı bildiriləcək. Fərqindədirlər ki, tezliklə nəinki bu mövzunun müzakirəsinə qayıdılacaq, həm də başqa, daha geniş miqyasda, daha böyük təşəbbüslə də çıxış ediləcək. Heç Türkiyə də bu dəhlizin açılmasına qətiyyən biganə yanaşmayacaq və bunu qardaş ölkənin mövqeyindən də duymaq, başa düşmək çətin deyil.

### Rəsmi İrəvanın ağız büzməyə, bəhanələr uydurmağa şansı da qalmır və artıq Zəngəzur dəhlisi layihəsi bir reallıq kimi görünür

Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Əbdülkadir Uraloğlunun məhz Zəngəzur dəhlizi ilə bağlı bəyanatından sonra haylar yuxularını lap qarışdırıblar. Çünki Türkiyə hökumətinin nümayəndəsi açıq şəkildə bildirib ki, Azərbaycan və Türkiyə arasında nəqliyyat sektorunda ən böyük layihə Zəngəzur dəhlizidir. Deməli, həmin dəhlizin reallaşması indi hər iki qardaş ölkənin maraqları dairəsindədir və buna hansısa miskin durumda olan Nikol kimi bir baş nazir, yaxud da onun "sözü hesaba alınmayan" hakimiyyət komandası buna qarşı çıxa bilməz. "Bu istiqamətdə biz Azərbaycan tərəfi ilə prosesləri fəal şəkildə davam etdiririk. Bu dəhlizin haradan keçəcəyinə, daha doğrusu, Ermənistan ərazisindənmi, yoxsa İran ərazisindənmi keçərək, istiqamət götürəcəyinə bizim azərbaycanlı qardaşlarımız özləri qərar verəcəklər. Amma biz bilirik ki, bu dəhliz Naxçıvandan keçərək, Türkiyəyə doğru çəkiləcək. Biz layihəmizi tamamladıq, tender keçirdik, yaxın günlərdə tikinti işlərinə başlayacağıq və Türkiyə ilə Azərbaycan arasında birbaşa nəqliyyat əlaqəsini təmin edəcəyik", deyə nazirin bildirdikləri erməni cəmiyyətinin kürkünə birə salıb. Çünki onlar daha da əmin olublar ki, dövlət rəhbərlərinin uydurmalarının nə və eləcə də nədən ibarət olmasından asılı olmayaraq bu layihə reallaşacaq. Artıq tamamilə əmindirlər ki, bir zamanlar avantüristcəsinə ortaya atılan hansısa beli çantalı, əli sarıqlı bir küçə nümayişçisinin, manipulyatorun uydurmalarından, nağıllarından fərqli olaraq, sözügedən dəhlizin olacağı artıq bir reallıqdır. Bu, Paşinyan kimi bir manipulyatorun nağıllarından fərqli reallıq olaraq, artıq elə hayların özləri tərəfindən də qəbul olunur.

Artıq ermənilər görürlər ki, reallıq tamamilə fərqlidir və "Sülh müqaviləsi" üzrə danışıqlardan kommunikasiyalar mövzusunun çıxarılması barədə Nikol Paşinyanın və onun hakimiyyət komandasının daxili auditoriyaya yönəlik cəfəngiyyatları, yalanları qətiyyən ayaq tutub yeriyən deyil. Görürlər ki, təkcə Azərbaycan tərəfi deyil, qardaş Türkiyə də həmin layihənin infrastrukturuna real investisiyalar qoymağa hazırdır. Bu da öz növbəsində o deməkdir ki, sülh müqaviləsinin imzalanmasından dərhal sonra elə məhz Türkiyənin və qardaş ölkə rəhbərinin vasitəçiliyi ilə haqqında qeyd olunan kommunikasiya məsələsi öz "həllini" tapacaq. Haylar bilirlər ki, bundan sonra rəsmi İrəvanın ağız büzməyə, bəhanələr uydurmağa şansı da qalmır və artıq Zəngəzur dəhlisi layihədən də çox reallıq kimi görünür.

***İnam Hacıyev***

Təhlil

# Qadın sünnəti və sağalmaz YARALAR



***Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, bu gün dünyada yaşayan 230 milyon qız və qadın müxtəlif üsullarla "sünnət edilib". Birləşmiş Millətlər Təşkilatı (BMT) hər 20 qadın və qızdan birinə təsir edən "qadın sünnəti"nin Afrika, Yaxın Şərq və Asiya başda olmaqla 30 ölkədə cəmləşdiyinə diqqət çəkir. Bu təcrübəyə Qərbi Avropa, Şimali Amerika, Avstraliya və Yeni Zelandiyada yaşayan mühacir əhali arasında da rast gəlindiyi bildirilir.***









BMT-nin məlumatına görə, 2024-cü ildə dünyada təxminən 4,4 milyon qız "cinsiyyət orqanlarının sünnəti" riski altındadır. Genital sünnət qeyri-tibbi səbəblərdən vulva və vaginanın kəsilməsi, qismən və ya tam çıxarılması və ya digər zədələnməsini əhatə edən bütün prosedurları əhatə edir. BMT hər il fevralın 6-da bu praktikaya son qoymağa çağırır. Keniyanın İsiolo bölgəsində yaşayan Borana qəbiləsindən olan Bişara Şeyx Hamo deyir ki, qadın sünnətinin həm fiziki, həm də ruhi sağlamlığa qalıcı təsirləri var.

Bişara deyir: "Mən 11 yaşımda "sünnət" olundum. Nənəm deyirdi ki, hər qız təmiz olmaq üçün bunu etməlidir". Ancaq həyatı boyu heç kim ona sidiyə çıxma problemləri, təkrarlanan infeksiyalar və menstruasiya pozğunluğu kimi təsirlərini, yeri gələndə ancaq keysəriyyə ilə doğum edə biləcəyini söyləməyib. Bu gün o, qadınların sünnət edilməsinə qarşı mübarizə aparan fəaldır. SİA mövzu ilə bağlı araşdırma aparıb.

## "Qadın sünnəti" nə deməkdir?

Bu adət qadınların xarici cinsiyyət orqanlarının qəsdən kəsilməsi deməkdir. Bu, adətən klitorisin və ya vaginal dodaqların kəsilməsini əhatə edir. ÜST "qeyri-tibbi səbəblərə görə qadınların reproduktiv orqanlarına xəsarət yetirən istənilən prosedurlu" cinsiyyət orqanlarının sünnəti kateqoriyasına aid edir.

Bu təcrübəyə məruz qalan qadınlardan biri, misirli blogger və kinorejissor Omnia İbrahim deyir ki, bu, qadınların münasibətlərinə və özləri haqqında düşüncə tərzinə çox zərər verir. O, "Buz kubuna çevrilirsən. Heç nə hiss edə bilmirsən, heç kimi sevə bilmirsən, istək hiss edə bilmirsən" deyir. Omnia deyir ki, o, yetkin həyatı boyu "qadın sünnətindən" psixoloji təsirə məruz qalıb. Keniyalı Bişara onunla birlikdə daha dörd qızın da "sünnət edildiyini" deyib.

Onlar əllərimi və gözlərimi bağladıqdan sonra ayaqlarımı kəsdilər: "Bir neçə dəqiqədən sonra kəskin ağrı hiss etdim. Qışqırdım, amma məni eşidən yox idi. Ayağa qalxmağa çalışdım, amma kimsə ayaqlarımdan tutdu. Bu, mümkün olan ən ağır tibbi müdaxilələrdən biri olmaqla yanaşı, həm də qeyri-gigiyenik idi. Oradakı bütün qızların üzərində eyni kəsici alətdən istifadə etdilər. Onların ağrıkəsici kimi istifadə etdikləri ənənəvi bitki mənşəli dərman idi. Sonra "Növbəti, növbəti" deyə qışqırdılar və o biri qızları götürdülər".

Qadın sünnəti bir çox ölkədə qadağan edilsə də, Afrika, Asiya və Yaxın Şərqdə mütəmadi olaraq həyata keçirilən bir prosedurdur.

## Qadınlar niyə "sünnət olunur"?

Qadın sünnətinin müxtəlif səbəbləri ola bilər:

Bunlardan bəziləri cəmiyyət tərəfindən qəbul edilmək istəyi, dini inanclar, gigiyena ilə bağlı yanlış məlumatlar, bakirəliyin qorunması, qadınları "evli" etmək, kişilərin cinsi həzzini artırmaqdır. Bəzi mədəniyyətlərdə bu, yetkinliyə keçid ayini və nikahdan əvvəl ilkin şərt kimi qəbul edilir.

Sağlamlıq və ya gigiyenik cəhətdən heç bir faydası olmasa da, bu proseduru tətbiq edən cəmiyyətlər qadın vaginasının kəsilməli olduğuna inanır və onlara görə "sünnətsiz" qadınlar çirkli və ya dəyərsiz görünə bilər. Səhiyyə rəsmiləri bu təcrübəni qadınlara qarşı zorakılıq və insan hüquqlarının pozulması kimi qiymətləndirirlər. Uşaqlara tətbiq edildikdə isə bu uşaq istismarı sayılır.

## Qadın sünnətinin növləri

**1.** Klitoridektomiya: Həssas klitoris sahəsinin və ətrafındakı dərinin hamısının və ya bir hissəsinin kəsilməsi.

**2.** Eksizyon: Klitorisin və vaginanın daxili dodaqlarının (kiçik dodaqlar) bir hissəsinin və ya hamısının kəsilməsi.

**3.** İnfibulyasiya: Vaginanı əhatə edən həm daxili dodaq, həm də xarici dodaqların kəsilməsi və quruluşunun dəyişdirilməsi. Bu proses tez-tez kiçik bir çuxur buraxaraq tikişi əhatə edir.

Bu prosedur olduqca ağrılıdır və infeksiya riski də daşıyır. Vajina ilə sidik yolları arasında yalnız menstrual qanaxma və sidik ifrazı üçün kiçik bir boşluq qalır.

Bu boşluq o qədər kiçikdir ki, bəzən cinsi əlaqə və doğuş üçün kəsilməlidir. Bu vəziyyət doğum zamanı həm körpə, həm də ana üçün risklər yaradır. Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, "qadın sünnətinin" sağlamlığa heç bir faydası yoxdur, əksinə, qızlara və qadınlara çoxlu zərərlər verir. Qadın orqanının təbii funksiyalarına müdaxiləni nəzərdə tutan qadın sünnətinin hər hansı bir forması sağlamlıq üçün ağırlaşmalar riski yaradır; Daha ağır müdaxilə formaları ilə risk daha yüksəkdir.

Dərhal ağırlaşmalara aşağıdakılar daxil ola bilər:
- şiddətli ağrı
- həddindən artıq qanaxma
- genital toxumaların şişməsi
- yanğı
- infeksiyalar, məsələn, tetanoz
- sidik problemləri
- yaraların sağalma problemləri
- ətrafdakı cinsiyyət orqanlarının zədələnməsi
- şok
- ölüm

Uzunmüddətli ağırlaşmalara aşağıdakılar daxil ola bilər:
- sidik problemləri (ağrılı sidik ifrazı, sidik yollarının infeksiyaları)
- vaginal problemlər (axıntı, qaşınma, bakterial vaginoz və digər infeksiyalar)
- menstrual problemlər (ağrılı menstruasiya, menstrual qan axınının çətinliyi və s.)
- çapıq toxuması və keloid (yara yerində qaldırılmış, sərt toxuma)
- cinsi problemlər (cinsi əlaqə zamanı ağrı, məmnunluğun azalması və s.)
- doğuşun ağırlaşmaları riskinin artması (çətin doğuş, həddindən artıq qanaxma, keysəriyyə əməliyyatı, körpənin reanimasiyasına ehtiyac və s.).
- psixoloji problemlər (depressiya, narahatlıq, travma sonrası stress pozğunluğu, özünə hörmətin azalması və s.)

## Hansı ölkələrdə həyata keçirilir?

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) və Ümumdünya Səhiyyə Təşkilatının araşdırmasında iştirak edən qadınların əksəriyyəti deyirlər ki, qadın sünnəti haqqında danışmaq onların icmalarında tabu sayılır. Ona görə də bu mövzuda verilən rəqəmlər təxminlərə əsaslanır. Bəzən qadınlar kənardan tənqid olunacağından qorxaraq bu mövzuda açıq danışmırlar. Bəzən prosedurun qeyri-qanuni olduğu yerlərdə onların ailə üzvlərini və ya sünnəti icra edən icma üzvlərini mühakimə etmək qorxusu üstünlük təşkil edə bilər.

Afrika və Yaxın Şərqin 30 ölkəsində cəmlənməsinə baxmayaraq, BMT-nin məlumatına görə, qadın sünnəti Asiya və Latın Amerikasının bəzi ölkələrində də tətbiq olunur. Bu təcrübə Qərbi Avropa, Şimali Amerika, Avstraliya və Yeni Zelandiyada yaşayan immiqrant əhali arasında da müşahidə olunur. UNICEF-in Afrika və Yaxın Şərqin 29 ölkəsini əhatə edən hesabatında bu ölkələrin 24-də qadın sünnətinə qarşı qanuni tənzimləmələr olsa da, hələ də geniş şəkildə tətbiq edildiyi bildirilir.

Azərbaycanda qadın sünnəti var?

2020-2021-ci illərdə Azərbaycan mətbuatında ölkənin şimal rayonlarında gizlincə tətbiq edilən azyaşlı qızların sünnəti – qadın sünnəti kimi adət haqqında məqalələr dərc edilirdi. Tək-tük hallarda da olsa, Azərbaycanda da bu halı qarşılaşmaq olar. Qadın sünnəti Azərbaycanın avar əhalisinin bir hissəsi arasında qalıb. Bu adət xüsusən regionun şimal hissəsindəki kəndlərdə - Danaçı, Paşan, Makov, Kebeloba, Mazıx, Yolayrıcı, Car, Axaxdərə və Zilbanda mövcuddur.

*Ayşən Vəli*

ARAŞDIRMA

# “Kəlbəcər sakinləri “Böyük Qayıdış”ın iştirakçılarıdır”

*"Azərbaycan Respublikası silahlı qüvvələrinin Ali Baş Komandanı Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi, Azərbaycan xalqının dəstəyi və Azərbaycan ordusunun apardığı uğurlu əməliyyatlar nəticəsində düşmən kapitulyasiya aktına qol çəkdi, nəticədə Kəlbəcər rayonu bu gün dörd il bundan əvvəl işğaldan azad edilmişdi". Bunu SİA-ya açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.*




O bildirib ki, bu nailiyyətə nail olmaq birinci növbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik siyasəti və döyüşlərin mərkəzdən idarə etməsinin sərkərdə məharətinin göstəricisidir: "Azərbaycan ordusunun qəhrəmanlığı nəticəsində atəşsiz və itkisiz Kəlbəcər rayonunun azad edilməsi çox böyük strateji əhəmiyyətə malikdir. Əgər hal-hazırda olan hava şəraiti nəzərə alınsa, Kəlbəcər rayonu dağlıq, meşəlik ərazi kimi xüsusi şəraitli ərazi olaraq Azərbaycan ordusunu nə qədər ağır döyüşlərin gözləyəcəyini düşünmək olar. Hər bir döyüş, hər bir addım itkisiz olmur, Kəlbəcər rayonunun da ərazi baxımından və gözlənilən döyüşlərin nəticəsində ola biləcək itkilər haqqında düşünəndə hər şeydən qiymətli olan Azərbaycan ordusunun Prezidentin apardığı siyasət nəticəsində Kəlbəcər rayonunun itkisiz azad edilməsi xüsusi qeyd olunur.

Kəlbəcər rayonu ərazi baxımından Ermənistanla ən böyük quru sərhədi olan rayondur. Sərhədlər dağlıq ərazidən keçir. Hal-hazırda Azərbaycan ordusunun bölmələri sərhəddə öz xidmətini çətin hava şəraitinə baxmayaraq Azərbaycanın ərazi bütövlüyünün Kəlbəcər rayonuna aid olan hissəsində aparırlar. Azərbaycan dövləti Kəlbəcər rayonunda infrastrukturun bərpa edilməsində aktiv işlər aparır. Baxmayaraq ki, düşmən vandalizm aktı keçirərək Kəlbəcər rayonunun bütün yaşayış məntəqələrini darmadağın edib. Hətta Ermənistan tərəfi 10 gün əlavə zaman istədi və 10 günün nəticəsində də Kəlbəcər rayonunun bəzi hissələri minalandı, həm də ağaclar belə kəsildi, evlər yandırıldı. Bunlar Ermənistan vəhşiliyinə yeni səhifə kimi yazıldı.

Azərbaycan ordusunun bölmələri ərazi bütövlüyünü hansı şəraitdə olursa-olsun qorumağa qadirdir. Baxmayaraq ki, düşmən ara-sıra o istiqamətdə atəşkəsi pozur, təxribatlara əl atır. İki il bundan əvvəl sentyabr ayında aparılan təxribatlar nəticəsində Azərbaycan ordusu bir daha dəmir yumruğunun gücünü göstərdi. Vətən müharibəsində qələbə qazanandan sonra Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan silahlı qüvvələrinin inkişafı ilə bağlı bilavasitə məşğul olaraq Azərbaycan ordusunun qısa zamanda güclənən sırasında yerini bərpa etdi. Özü dediyi kimi Azərbaycan ordusu nə lazımdır, onunla da təmin ediləcək. Bunun nəticəsini bu gün inkişaf edən Ali Baş Komandanın tapşırığını yerinə yetirən ordunun inkişafında görə bilərik".

"Azərbaycan ordusu özünəməxsus statistik qurumların verdiyi qiymətə və nəticəyə görə yenə də güclülər sırasında yer alaraq öz inkişafını davam edir. Bu gün Azərbaycan ordusunun Kəlbəcər rayonunda apardığı hərbi infrastrukturun yaradılması da diqqəti cəlb edir. Aparılan işlər bu gün ağır hava şəraitində olan Kəlbəcərdə şəxsi heyətin xidməti üçün inkişafı görə bilərik.

Vaxt var idi ki, Azərbaycanda rayonların işğalı günü çox böyük kədərlə qeyd olunurdu. Artıq Azərbaycanın azad etdiyi torpaqların dördüncü il dönümünü, məhz Kəlbəcər şəhəri gününü qeyd etmək çox qürurvericidir. Kəlbəcər camaatının işğaldan azad edilmiş torpaqlara qayıtması prosesi başlayıb. Çox ağır qaçqın statusuna aid ada artıq son qoyularaq "Böyük Qayıdış"ın şahidi oluruq. Kəlbəcər rayonunun sakinləri qayıdışın iştirakçılarıdır. Azərbaycanın gözəl guşəsi olan Kəlbəcər şəhəri günü münasibətilə hamımıza xoş arzularımı bildirirəm" - deyə o, əlavə edib.

**Söylü**




# Cəriməni ödəməyən şəxsin sürücülük hüququ məhdudlaşsa, nə etməlidir?



MÜNASİBƏT

“İnzibati Xətalar Məcəlləsinin 25.1-ci maddəsinə əsasən, inzibati cərimə bu Məcəllədə nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Tural Həsənli deyib.

O bildirib ki, inzibati cərimə əsas inzibati tənbeh növlərindən biri kimi tətbiq edilir: "Bir inzibati xətaya görə əsas tənbeh, yaxud əsas və əlavə tənbeh tətbiq edilə bilər. Manatla hesablanan və inzibati xətaya görə fiziki şəxsdən alınan inzibati cərimənin məbləği beş min manatdan, vəzifəli şəxsdən alınan inzibati cərimənin məbləği on min manatdan, hüquqi şəxsdən alınan inzibati cərimənin məbləği əlli min manatdan artıq ola bilməz. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, inzibati cərimə Azərbaycan Respublikasının dövlət büdcəsinə ödənilir. İXM-də nəzərdə tutulmuş hallarda, inzibati xətanı törətmiş şəxs barəsində səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxarır. İnzibati xətanın bilavasitə obyekti olmuş predmetin dəyəri ilə ölçülən cərimənin məbləği həmin predmetin dəyərinin yüz faizindən, ödənilməmiş ödənişlərin, vergilərin məbləği ilə ölçülən cərimənin məbləği isə həmin ödənişlərin, vergilərin yüz əlli faizindən artıq ola bilməz. İnzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) miqdarı ilə ölçülən cərimənin məbləği həmin ziyanın (əldə edilmiş gəlirin) on mislindən artıq ola bilməz.

İnzibati məsuliyyətə cəlb olunan şəxsin maddi vəziyyəti nəzərə alınmaqla, inzibati cərimənin ödənilməsi bu barədə qərar qəbul etmiş hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən altı ayadək müddətə uzadıla bilər. İnzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı qanuni qüvvəyə mindikdən və ya bu Məcəllənin 143-cü maddəsində nəzərdə tutulmuş möhlət verilmənin, təxirəsalmanın müddəti bitdikdən otuz gündən gec olmayaraq, inzibati xəta törətmiş şəxs inzibati cəriməni ödəməlidir. İnzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən və ya bu Məcəllənin 143-cü maddəsində nəzərdə tutulmuş möhlət verilmənin, təxirəsalmanın müddəti bitdikdən on gündən gec olmayaraq, inzibati xəta törətmiş şəxs inzibati cəriməni ödəməlidir. Yetkinlik yaşına çatmayanın müstəqil qazancı olmadıqda, inzibati cərimə onun valideynlərindən və ya digər qanuni nümayəndəsindən tutulur. İnzibati cərimə inzibati xəta törətmiş şəxs tərəfindən yalnız bank, poçt, plastik kart və ya internet vasitəsilə ödənilir. Cərimənin ödənilməsi qaydası barədə müvafiq məlumat inzibati xəta haqqında iş üzrə icraat aparan səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xətanı törətmiş şəxsə verilir. Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə tətbiq edilmiş inzibati cərimə ilə əlaqədar ödənişi qəbul edən bank və ya poçt müvafiq ödənişin edildiyi barədə məlumatı dərhal elektron qaydada müvafiq icra hakimiyyəti orqanlarının informasiya sistemlərinə göndərir. İXM-də nəzərdə tutulmuş müddətdə inzibati cərimə ödənilmədikdə, onun ödənilməsi məqsədi ilə inzibati cərimə tətbiq etmə haqqında qərarın surəti həmin qərarı qəbul etmiş səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən:



fiziki şəxslər barəsində - onun əməkhaqqından, təqaüdündən, pensiyasından və ya digər gəlirlərindən tutulması üçün inzibati məsuliyyətə cəlb edilmiş şəxsin işlədiyi və ya oxuduğu, yaxud əməkhaqqı aldığı müəssisəyə, idarəyə, təşkilata və ya pensiya təyin edən orqana;

hüquqi şəxslər barəsində - hüquqi şəxsin pul vəsaitlərindən və ya gəlirlərindən tutulması üçün banka və ya digər kredit təşkilatlarına göndərilir.

Barəsində inzibati cərimə növündə tənbeh tətbiq edilən fiziki şəxs işləmirsə, yaxud onun əməkhaqqından və ya digər gəlirlərindən inzibati cərimənin ödənilməsi mümkün deyildirsə, eləcə də hüquqi şəxsin banklarda və digər kredit təşkilatlarında hesabları barədə məlumat və ya hüquqi şəxsin hesabında pul vəsaiti olmadıqda, yaxud cərimə könüllü qaydada ödənilmədikdə inzibati cərimə tətbiq etmə haqqında qərar “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada məcburi icraya yönəldilir".

"Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların, yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədilməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən 30 gün müddətində cəriməni qanunla müəyyən edilmiş əsaslar olmadan ödəməyən şəxsə onun ödənilmədiyi hər növbəti gün üçün cərimə məbləğinin 1 faizi məbləğində dəbbə pulu hesablanır. Dəbbə pulu bütün gecikdirilmiş müddətə, lakin 2 aydan çox olmamaq şərti ilə tətbiq edilir. Qərarın qanuni qüvvəyə mindiyi gündən 2 ay müddətində cərimə qanunla müəyyən edilmiş əsaslar olmadan ödənilmədikdə, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xəta törətmiş şəxsin inzibati xətanı törədərkən idarə etdiyi nəqliyyat vasitəsinin saxlanılması barədə qərar qəbul edir. Cərimə, müvafiq dəbbə pulu, nəqliyyat vasitəsinin duracağa gətirilməsinə və onun orada saxlanılmasına görə haqq ödənildikdən sonra saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarılır. Qərarın qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində cərimə qanunla müəyyən edilmiş əsaslar olmadan ödənilmədikdə, barəsində inzibati tənbeh tətbiq edilən şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılmasına dair qərar qəbul edilir və cərimənin ödənilməsini təmin etmək məqsədi ilə məcburi icraya yönəldilir. Məcburi icraya yönəldilmiş inzibati tənbeh tətbiq etmə haqqında qərar könüllü icra üçün qanunla müəyyən edilmiş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məcburi icra tədbirləri görür. Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların, yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədilməsinə görə barəsində inzibati cərimə tənbeh növü tətbiq edilən şəxs qərarı dərhal və ya qərarın qanuni qüvvəyə mindiyi gündən 5 iş günü müddətində icra edərsə, tətbiq olunan cərimənin 10 faizi məbləğində ödənişdən azad edilir. Hüquqi və ya fiziki şəxs olan işəgötürənin mülkiyyətindəki və ya istifadəsindəki nəqliyyat vasitəsinin sürücüsü inzibati xəta törətdikdən sonra onun işəgötürənlə əmək münasibətlərinə xitam verilmişdirsə və inzibati xətanı törətmiş şəxs 2 ay müddətində inzibati cəriməni ödəməmişdirsə, nəqliyyat vasitəsinin saxlanılması barədə qərar qəbul edilmədən, inzibati xətanı törətmiş şəxsin nəqliyyat vasitəsini idarə etmək hüququnun məhdudlaşdırılması barədə qərar qəbul edilir və cərimənin ödənilməsini təmin etmək məqsədi ilə məcburi icraya yönəldilir" - deyə o, əlavə edib.

**S. Ağazadə**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Plastik və polietilen terroru: Özümüzü və təbiəti zəhərlənməkdən necə qoruya bilərik?

***Bütün dünyanı "zəbt edən" plastik qablaşdırma və polietilen paketlər hər gün bir az da çoxalır. Əgər əvvəllər bizə 5-10 adda plasik qablaşdırmalı məhsul təklif edilirdisə, bu gün belə məhsulların sayı-hesabı yoxdur. Polietilen paketlərin və plastik qabların kütləvi istehsalı təxminən 50 il əvvəl başlanıb, lakin biz onlardan geniş istifadəyə SSRİ-nın dağılmasından sonra başladıq. 90-cı illərədək ekoloji təmiz kağız və parça torbalar, şüşə və karton qablar istifadə olunurdu. İndi isə hər şeyi polietilen torbalarda və ya plastik qablarda alırıq. Bəs bu kimyəvi qablaşdırma hansı nəticələrə səbəb ola bilər?***



Dünya ailmləri plastik qab-qacaqdan istifadənin insan sağlamlığına zərər verməsi ilə bağlı demək olar ki, hər ay həyəcan siqnalı verirlər. Araşdırmalar göstərir ki, plastik qab-qacaq və polietilen paketlər insan, xüsusilə də uşaq orqanizminə son dərəcə ciddi təhlükə yaradır. Bu qablar insanın ürək-damar sistemində çatışmazlıqlar yaradır, hətta bəzən xərçəng xəstəliyinin yaranmasına belə səbəb olur.

Qlobal istiləşmənin bir səbəbi də polietilen torbalarla çirkləndirilmiş təbiət hesab edilir. Cənubi Afrikada sellofan torbalara ironiya ilə "milli çiçək" adı verilib, çünki ölkənin hər yerində hər addımbaşı bu torbalar səpələnib. Banqladeşdə 1988 və 1998-ci illərdə baş verən dağıdıcı leysanın nəticələrinin ağır olmasının səbəbi məhz sellofan torbalarda görülür. Çünki ölkədəki bütün kanalizasiya xətlərinin qabağını bu torbalar kəsərək suyun sürətli axışını ləngidib. 1998-ci ildən bəri Banqladeşin paytaxtında polietilen torbalar qadağan edildi və alternativ variantlar istifadə edildi.

Artıq bir çox ölkələrdə plastik qablaşdırmadan və polietilen paketlərdən istifadəni qanunla qadağan ediblər. 2022-ci ildən etibarən Avropa İttifaqı ərazisində də yemək qabları, qəhvə çubuqları da daxil olmaqla birdəfəlik istifadə olunan plastik məhsulların qadağan edilməsi ilə bağlı qanun qüvvəyə minib.

İndi dünya ölkələrində bu prosses yavaşlatmaq və dayandırmaq üçün bir çox ölkələrdə sellofan-plastik-polietilen torbaların istifadəsinə ya icazə verilmir, ya da onların istifadəsi məhdudlaşdırılıb. Artıq dünyanın bir sıra ölkələrində yeməklərin, xüsusilə də isti yeməklərin plastik qablarda verilməsindən tam imtina olunub. Onlarda yeməklər karton qablarda verilir.



Lakin bu sahədə Azərbaycanda ciddi problemlər var. Əksər şirniyyat kafelərində və qəlyənatılarda verilən çay və kofe qaynar halda plastik stəkanda təklif olunur ki, bu da orzaniqmin zəhərlənməsi deməkdir. Bunu satıcılara irad tutanda bildirirlər ki, başqa əlac yoxdur: "Heç kim hamının istifadə etdiyi fincanda içmək istəmir. Deyirlər ki, biz nə bilək, bunda kim nə içib, necə yuyulub, şəhərdə minlərlə yoluxucu xəstəliyi olan adam gəzir".

Keçən il belə bir cəhd edildi ki, mağazalarda sellofan paketlərin istifadəsi azalsın, bu məqsədlə həmin paketlər pullu edildi. Lakin bu tədbir demək olar ki, heç bir effect vermədi, yalnız alıcıları əlavə xərcə saldı. Belə paketlərin istifadəsi cüzi azaldı, ciddi təsir olmadı. Plastik qablaşdırma isə nəinki azalmır, getdikcə də artır.

Mütəxəssislər bu qabların zərərli olduğunu və ondan istifadənin minimuma endirilməsinin vacibliyini deyir. Əgər siz evə, iş yerinə yemək sifariş edirsinizsə, heç bir halda onu plastik qablarda qəbul etməyin. Yeməklərin keyfiyyəti yüksək olsa belə, bu qidaların qoyulduğu birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik qablar istilik zamanı öz tərkibində olan zərərli kimyəvi maddələri yeməyə və ya içkiyə buraxır. Nəticədə xəbərimiz olmadan orqanizmimizi qidalandırmaq əvəzinə zəhərləyirik.

Hətta bəzi hallarda insanlar yeməyi birdəfəlik qablarda mikrodalğalı sobalarda qızdırırlar. Bu isə qabların kimyəvi tərkibinin yeməyə qarışmasını daha da sürətləndirir və son dərəcə zərərlidir. Aparılan araşdırmalar zamanı məlum olub ki, əmziklər və uşaqlar üçün süd butulkaları başda olmaqla bir çox plastik məhsulda istifadə edilən "BPA" maddəsi yeniyetmə və uşaqların, xüsusilə də 1 yaşadək körpələrin inkişafına mənfi təsir edir.

Ölümcül təhlükə yaratdığı üçün ABŞ, Kanada, Danimarka, Fransa, İtaliya olmaq üzrə dünyanın bir çox ölkəsində istehsalı dayandırılan əmzik və plastik süd-su şüşələri həzm sistemində problemlər, immunnitet zəifliyi, psixi problemlər, piylənmə, hiperaktivlik, ürək xəstəliyi, qızlarda döş xərçəngi və sonsuzluq kimi xəstəliklərə səbəb olur.

İstehlakçıya təklif edilən əmziklərin çoxu, "Bisfenol A" tərkibli polikarbonatdan istehsal olunur. "Bisfenol A", əmziyin içindəki mayeyə keçə bilən, hormon sisteminə zərər verən kimyəvi maddədir. Bu maddə körpə əmzikləri ilə yanaşı, su şüşələrində, tibbi cihazlarda, idman ləvazimatlarında, plastik plastik stəkanlar kimi bir çox məhsulda var.

Son araşdırmalara görə, Amerikada insanların 93%-nin qanında "Bisfenol A" var. Bu ölkədə satılan hər 10 əmzikdən 9-da BPA tapılıb. Niderlandda aparılan araşdırma zamanı insan bədənində və qanında plastik partikulların artdığı aşkar olunub.

Qeyd edək ki, plastik və polietilen torbalar ekologiyaya da dəhşətli zərrə vurur. Amerikada aparılan ən son araşdırma zamanı məlum oldu ki, hər il dünyada təxminən 1 trillion sellofan torba istehsal edilir. Dünyada hər 1 dəqiqədə isə 2 milyon plastik qab və polietilen torba zibil qutusuna atılır. Polietilenin çürüyərək yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 il lazım gəlir. Platik qablar vvə polietilen paketlərin təbiətə vurduğu zərərin sayı hesaba gəlməyəcək qədər çoxdur.

Rusiyada aparılan bir araşdırma zamanı məlum oldu ki, okeanda səfərdə olan gəmilər ildə 4 milyon kiloqram polietilen torbanı dənizə atır. Artıq okeanlarda nəhəng pastik və selofan "dənizləri" əmələ gəlib. Okean və dənizlərdəki canlıların 40 faizdən çoxunun mədəsində plastik var.



Təbiətə atılmış polietilenlər çürüməyə başladıqdan sonra ətrafa zərərli kimyəvi maddələr yayır və bu maddələr torpağa, suya qarışaraq qida zəncirimizi yavaş-yavaş çirkləndirir. Dənizləri, göllləri, çayları eybəcər hala salır, kanalizasiyaları tıxayır, yollarda xəzan əvəzinə sellofan torbalar uçuşur. Bu kimyəvi tullantılar təkcə suyu yox, torpağı və havanı da zəhərləyir. Adi qaydada atıldıqda suyu, torpağı, yandırıldıqda isə havanı zəhərləyir. Ən böyük zərəri isə insan sağlamlığına vurur, xərçəngdən tutmuş hər cür xəstəlik yaradır.

Yeri gəlmişkən, Sağlam Cəmiyyət Hərəkatı polietilen torbalarla bağlı onlayn sorğu keçirib, nəticə çox maraqlı olub. Təşkilatın sosial şəbəkə səhifəsində respondentlərə "Plastik qabların və polietilen paketlərin istifadəsinin qadağan olunmasına tərəfdarsınızmı?" sualı ünvanlanıb. Soğruda iştirak edən 64 nəfərdən 59-u tam qadağaya tərəfdar olduğunu bildirib və təbii məhsullardan istifadəyə keçilməsinin vacibliyini deyib. 5 nəfər isə plastik və polietilen qablaşdırmaların daha rahat olduğunu deyərək qadağan edilməsinə tərəfdar olmadığını bildirib.

Bəs təbiəti və özümüzü bu fəlakətdən xilas etmək yollar yoxdurmu? Təbii ki, var! Sovet dövründə istifadə olunan şüşə, parça, kağız, karton qablaşdırmaya qayıtmaq lazımdır. Niyə bütün qablar birdəfəlik olmalıdır? O vaxt şüşə butulka və banka qəbulu məntəqələri var idi. İndi də bu işi təşkil etmək olar. İnsanlar bazardukana gedəndə parçadan ve brezentdən hazırlanmış torbalar götürürdülər, mağazalarda isə məsələn yağı indiki kimi sellofana bukub vermirdilər, kağıza bükub verirdilər. Bu daha sağlam üsuldur və təbiətə də zərər vurmur.

Azərbaycanda tətbiq olunan məhdudlaşdırma ona görə effekt vermədi ki, uğurlu alternativlər təşkil olunmadı. Bu proses kompleks şəkildə və tam miqyasda aparılmalıdır. Əvvəla, şüşə qabların, taxta taraların qəbulu məntəqələri təşkil olunmalıdır, ikincisi kağız, parça, brezent paketlər, çantalar ucuz qiymətə təklif olunmalıdır. Plastik və polietilen paketlərin yeni bioloji təmiz növlərindən qismən istifadə təşkil olunmalıdır.

**Elçin Bayramlı**

SON SƏHİFƏ
SƏS
26 noyabr
2024-cü il

# “Söküntü Bakının daha pis vəziyyətdə olan məhəllələridən başlanılacaq”




***Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev mətbuata açıqlamasında bildirib ki, Bakıda söküntü işlərinin aparılması əsasən sifarişçilərdən, o cümlədən iş adamlarından asılıdır.***

”Bizim hazırladığımız Baş plan paytaxtın inkişaf istiqamətlərini və lazımi məhdudiyyətləri müəyyən edir. Amma şəhərin hansısa ərazisində nə vaxt, nə iş aparılacaq, bu, ayrı-ayrı sifarişçilərdən, o cümlədən iş adamlarından, eləcə də icra hakimiyyətlərindən asılıdır. Təbii ki, söküntü Bakının daha pis vəziyyətdə olan məhəllələrdən başlanılacaq və illərlə bu işlər aparılacaq. Hazırda tikinti şirkətləri köhnə binaları söküb yerində yeni binalar tikməkdə maraqlıdırlar və bu layihələr həm Bakıda, həm də regionlarda həyata keçirilir”, - deyə o qeyd edib.

## Bakıda 2 nəfəri öldürən şəxs 20 il azadlıqdan məhrum edildi



***Ötən il Bakıda iki nəfəri qətlə yetirməkdə təqsirləndirilən Arif Bəhərçiyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, o, 20 il müddətə azadlıqdan məhrum edilib.***

Xatırladaq ki, dövlət ittihamçısı A.Bəhərçiyevin ömürlük azadlıqdan məhrum edilməsini istəmişdi. Qeyd edək ki, hadisə ötən il dekabrın 31-də Bakının Binəqədi rayonu, Biləcəri ,qəsəbəsində baş verib.

## Bu ölkədə 26 milyon insan aclığa məhkumdur- BMT həyəcan təbili çaldı!

Konqo Demokratik Respublikasında hazırda 26 milyona yaxın insan aclıq astanasında yaşayır. Bu barədə Konqonun “Okapi” radiostansiyası BMT strukturları ekspertlər qrupunun hesablamalarına istinadla məlumat yayıb.

Bildirilib ki, 26 milyon insanın təxminən 3 milyonu kəskin qida çatışmazlığı yaşayır. Mütəxəssislər ölkənin bir sıra ərazilərində ərzaq təhlükəsizliyinin təmin olunmamasının səbəbi kimi üsyançıların hərəkətləri və hərbi əməliyyatlar nəticəsində yaranan zorakılıqları, ərzaq məhsullarının qiymətinin qalxmasını, qaçqın və köçkünlərin ərzaqla təmin olunmasında yaranan çətinlikləri göstərirlər.




## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Messi yeni biznesə başlayır -10 minlik velosiped satışı..




Argentina millisinin və ABŞ-nin ”İnter Mayami” klubunun futbolçusu Lionel Messi velosiped biznesinə başlayır. Bu barədə ”Relevo” nəşri məlumat yayıb. 37 yaşlı hücumçu layihəni yaxın aylarda gerçəkləşdirməyi planlaşdırır. O, adı hələlik açıqlanmayan məşhur velosipedçi ilə birlikdə işə başlayacaq.

Bu, dünyanın ən yaxşı velosipedləri ilə müqayisə edilə biləcək model olacaq və qiyməti təxminən 10-15 min avro aralığında dəyişəcək.


## ELAN

**Hörmətli səhmdar:**

**“BİM-7” Səhmdar cəmiyyəti Sizə bildirir ki, 15 dekabr 2024-cü il tarixində saat 11:00-da 7-ci MKR, Xarici darəvi küç 3121 məhəllə ünvanında Səhmdarların Növbədənkənar Ümumi yığıncağı olacaqdır.**

**Yığıncağın gündəliyində müzakirə olunacaq məsələlər aşağıdakılardır**
**1. ASC-nin balansında olan, qülləli kranların, nəqliyyat vasitələrinin və avadan-lıqların satışından, əldə olunmuş mənfəətin, bölüşdürülməsinə dair.**

**4. Cari məsələlər.**
**Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 11:00 - dan, 14:00 - dək ASC-nin idarə heyətinin Sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər. TEL: 050 212 16 13**

**Müşahidə Şurası.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**